

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 51 (24.433)

21 dekabr 2024-cü il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Sözü və imzası bir olan PREZİDENT



*“Bizim sözümüz imzamız qədər dəyərlidir”*

***Dünyanın qlobal güc mərkəzləri arasında mövcud olmuş tarazlıq zaman-zaman pozulduqca iri dövlətlərin siyasi ambisiyalarından və torpaq hərisliyindən qızışan geostrateji mübarizələr də getdikcə fərqli xüsusiyyətlər alır. Qlobal siyasi arenadakı sözü və əməli ilə xüsusi çəkiyə sahib olan, qarşılıqlı ikitərəfli və çoxtərəfli münasibətlərdə sözü və imzası ilə tanınan dövlət başçılarının belə mübarizələr meydanında sərgilədiyi davamlı siyasət, bu mənada, xalqlara çox lazımlı olan dayanıqlı sülhün və inkişafın mühüm amillərindəndir. XXI əsr dünya arenasında artıq öz izini qoymuş, nəyi nə zaman edəcəyini hamıdan yaxşı bilən dövlət başçımız Prezident cənab İlham Əliyev məhz belə liderlərdən biri kimi ölkəsinin və yaşadığı regionun maraqlarını ən yüksək səviyyədə qorumağı bacaran siyasətçilərdəndir.***

Səhifə ➡ 2


Xalqın məğrur övladı, Müzəffər Sərkərdə 3

21-ci əsrin möhtəşəm 21 ili 4

Naxçıvanda “Heydər Əliyev və Azərbaycan Həmkarlar İttifaqları” mövzusunda konfrans keçirilib 5

“Şərq qapısı” qəzetinin hazırladığı “100 ilin qəhrəmanları” kitabının təqdimat mərasimi olub 7

Qışın müjdəçisi – çillə 12

# Sözü və imzası bir olan PREZİDENT



(əvvəli 1-ci səhifədə)

Ədalətsizliklərlə dolu olan və ətrafa yalnız "beş böyüklər"in pəncərəsindən baxmağa adət edilmiş hazırkı qlobal siyasət dünyasından fərqli olaraq müstəqil Azərbaycan Respublikası uzun illər sonra bərpa etdiyi ədalətin yolunu davam etdirərək yaşadığımız planetin, əslində, "beşdən böyük" olduğunu, kiçik ada ölkələri də daxil olmaqla hər kəsin sahib olduğu resurslarının yalnız öz xalqlarının rifahına və ümumbəşəri mədəniyyətin inkişafına xidmət edəcəyini məhz Prezidentinin dilindən yüksək tribunalardan dəfələrlə bəyan etməkdədir. Ölkəmizin yerləşdiyi regionun geopolitik mənzərəsini vaxtında təhlil edərək ümumi siyasi proqnozları hamıdan yaxşı görən dövlət başçımız, bu mənada, hər liderlə onun dili ilə danışmağı yaxşı bacaran nadir siyasətçi kimi də dünyada qəbul olunur. Tutarlı siyasi arqumentlərini bir neçə xarici dildə dəqiq ifadə edə bilən cənab İlham Əliyev bununla yanaşı, dünya siyasətində Azərbaycan dilinin də ünsiyyət vasitəsi olması gərəkdiyini vurğulamaqdadır. Çünki qalib xalqın dili regionda Azərbaycanın maraqlarına uyğun gəlməyən heç bir siyasi qərarın və layihənin gerçəkləşə bilməyəcəyini digər dövlət başçılarına izah edə bilmək üçün heç bir vasitəçiyə ehtiyac olmayan ən yaxşı dildir.

Müasir dünya siyasətində sözü ilə tanınan Prezident cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının dövlətçiliyi üçün miras qoyduğu siyasi məktəbin ən yaxşı davamçısı kimi ölkələrlə olan qardaşlıq və dostluq münasibətlərindəki səmimiyyəti ilə yanaşı, qonşuluq əlaqələrinə də münasibətilə hazırda dövlətimizin siyasi arenadakı əsas vektorunu müəyyənləşdirən, strateji hədəflər və konyunktur vəzifələr istiqamətindəki işləri idarə edən gərgin fəaliyyət qrafikinə sahibdir. Bu mənada, 14 fevral 2024-cü il tarixdəki andiçmə mərasimində önümüzdəki dövrün böyük Türk dünyası ailəsi ilə sıx inteqrasiya əsri olacağını bəyan etmiş dövlət başçımızın sözləri Çindən Avropa sərhədlərinə qədər bütün Türküstanı bir araya gətirən bir şüar kimi hər kəsi həyəcanlandırır. Bu, dövlət başçımızın 44 günlük Vətən müharibəsində dillər əzbəri olmuş məşhur "Qarabağ Azərbaycandır!" ifadəsi kimi böyük Qələbəmizin dünyadakı daşları necə yerindən oynatdığını bugünkü hadisələr fonunda daha açıq göstərir. Bu mənada, hələ də silahlanma istəkləri ilə çırpınan revanşist Ermənistana nə zamansa sülh müqaviləsini imzalayacaqlarını başa salmaq üçün dövlət başçımız tərəfindən bir dəfə deyilən sözü ermənilər və havadarları min illər sonra da unutmayacaqlar. Çünki bu, qalib ölkənin müzəffər Ordusunun Ali Baş Komandanının sözü və imzasıdır!

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözü və imzası hər yerdə vardır. Hələ 10 noyabr 2020-ci il tarixdəki üçtərəfli Bəyannaməyə imza atan dövlət başçımız verdiyi sözə əməl etmək üçün dərhal regionda kommunikasiyaların açılması, dinc quruculuğa başlanılması, məcburi köçkünlərin doğma yuvalarına qaytarılması üçün ölkəmizin daxili imkanları hesabına genişmiqyaslı işlərə start verdi. Bununla paralel olaraq məğlub Ermənistanın kommunikasiyaları açmamaq üçün etdiyi inada baxmayaraq, bunun sülh yolu ilə ediləcəyini vurğulayan dövlət başçımız bu il məhz 9 fevral tarixdə Bakıda, Bayraktar "Akıncı" hücum PUA-nın üzərinə xatirə imzasını çəkməklə qarşı tərəfə daha bir sözünü demiş oldu. Bu, Prezidentimizin dilindən məşhur olmuş ***"Zəngəzur dəhlizi açılacaqdır, Ermənistan bunu istəsə də, istəməsə də!"*** bəyanatı kimi hər yerdə tanınır. Bu imza "Akıncı"nın qanadlana bildiyi ən son yüksəkliklərdən o qədər aydın görünür ki, onun sahibinin məhz Azərbaycan Respublikasının Prezidenti olduğunu Hindistandan Parisə qədər hər yerdə hər kəs yaxşı bilir.

## Prezident İlham ƏLİYEV:

> ***"Biz hər zaman sözümüzə, vədimizə, imzamıza sadiq qalmışıq, dəyişməmişik və dəyişməyəcəyik. Yolumuz da, hədəfimiz də bəllidir və bu yola, bu hədəfə doğru daim inamla, qətiyyətlə irəliləyəcəyik!"***

Dost və qardaş sözü sadə insanlar üçün nə qədər əzizdirsə, xalqlar, dövlətlər və onların rəhbərləri üçün də bir o qədər dəyərlidir. Taleyin çətin anında əziz insana verilən təsəlli sözü, bu mənada, tarix boyunca heç vaxt unudulmayan, qardaşlıq münasibətlərinə möhkəm zəmin qazandıran təməl daşları qədər qiymətlidir. Azərbaycan xalqının sahib olduğu belə mənəvi dəyərlərə həmişə yüksək qiymət verən və xalqlar, dövlətlərarası münasibətlərdə də dostluq, qardaşlıq münasibətlərini hər şeydən üstün tutan dövlət başçımız fəaliyyətinin bütün dövrlərində dostlara verdiyi sözə əməl edən lider xarizması qazanmış, bununla azərbaycanlıların imicini dünyada tanıtmışdır. Bəzi dövlətlərin, hətta böyük dövlətlərin başçıları belə müəyyən adi situasiyalarda mövqe dəyişdirdiyi halda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tarixi bağlılıqdan gələn doğmalığı əsas tutaraq öz xarici siyasətində qardaşını və dostunu birdəfəlik müəyyən etmiş bir lider kimi fəaliyyətini davam etdirir. Azərbaycanın haqlı mübarizəsini apardığı çətin günlərində onunla bərabər olmuş ölkələrlə isti münasibətləri həmişə qoruyub saxlamağa müvəffəq olmuş dövlət başçımız, bu mənada, apardığı bu uğurlu siyasətin bəhrəsini görməyi də bacarır.

XXI əsrdəki qlobal ekoloji problemlərin həlli və ölkəmizi də əhatə edən münaqişə ocaqlarının söndürülməsi insanların ən təməl hüququ olan sülh içində yaşaması üçün liderlər üzərinə böyük məsuliyyət qoyur. Bu mənada, Azərbaycanı hər cür xarici təhdidlərdən qorumaq qədər ölkəmizdəki quruculuğu da gələcəyin prioritet vəzifələri elan edən dövlət başçımızın Xəzər sahillərindən Naxçıvana qədər qədəm qoyduğu hər qarış torpağımızın abadlaşması, insanların daha firavan yaşaya bilməsi üçün imzaladığı hər dövlət sənədi bu gündən sabaha miras qoyulan xoşbəxt gələcəyin bünövrəsidir. Bütün Azərbaycanda "yaşıl keçid"i qarşıya məqsəd qoymuş Prezident cənab İlham Əliyev bununla ölkəmizin dünya arenasındakı imicini yüksək səviyyəyə qaldırmış, gələcəyə yönəlmiş davamlı inkişaf məsələlərində liderləri də öz sözünü tutmağa dəvət etmişdir. Bu il ölkəmizin ev sahibliyi etdiyi qlobal COP29 iqlim konfransına hazırlıq mərhələsində və gedişində dövlət başçımızın dünyaya verdiyi mesajlar bu baxımdan hər kəsin yaddaşında yaşayacaq sözlərdir.

Dövr sürətlə dəyişir və bu gün dünyadakı və yaxın regiondakı mürəkkəb siyasi vəziyyətə baxmayaraq, Azərbaycan Respublikası özünün ən güclü dövlətçilik tarixini yazmaqdadır. ***"Sözümüz imzamızdır!"*** inancı ilə xalqına xidməti özünün fəlsəfəsi kimi elan etmiş dövlət başçımız cənab İlham Əliyev sözü və imzası bir olan Prezident kimi tarixdə yaşayacaq.

Əli CABBAROV



# Xalqın məğrur övladı, Müzəffər Sərkərdə

***Həmin gün – soyuq bir qış günü Tanrı gözlərə nur bəxş edən ananı, qəlbi Vətən eşqi ilə döyünən atanı bir oğul payı ilə sevindirəndə heç kimin ağlına gəlməzdi ki, vaxt gələcək, bu oğul böyüyüb bir xalqın başucalığı, bir Vətəni bütövləşdirən Müzəffər Sərkərdə olacaq. Gələcəkdə çətin bir mübarizəyə atılacağına görə idimi, bəlkə də, Tanrı ona Zərifə xanım kimi qayğıkeş, gözəl bir ana, Heydər Əliyev kimi məğrur, vətənpərvər bir ata qismət etmişdi… Ana övladının çiyninə qoyulacaq ağır yükü, bəlkə də, hiss etmişdi həmin gün. Uşaqlıq insan həyatının ən gözəl çağıdır deyib, İlhamını əzizləyib böyütmüşdü.***



Cəmi altı yaşı olanda atasının general rütbəsi ilə təltif olunma mərasimində onun əynindəki hərbi formaya və çiyninə taxılan general rütbəsinə baxıb qürur duyanda o özü də hiss etmişdi böyük bir yolun yolçusu, davamçısı olacağını. Həmin gün uşaq olsa da, söz vermişdi, uşaqlığının qəhrəmanı atası Heydər Əliyevə layiq, məğrur övlad olacağına.

Çətin bir yolun onu gözlədiyini hiss etmişdi ki, orta məktəbdə, universitetdə təhsil alanda da yoldaşlarından fərqlənir, daha çox öyrənməyə çalışırdı. Məktəbdə müəllimlərin, evdə isə dünyanı lərzəyə gətirən bir ittifaqın əsas idarəçilərindən biri olan atası Heydər Əliyevin qarşısında imtahan verirdi. Və bu çətin sınaqlardan həmişə üzüağ çıxırdı. Ən çətin vaxtlar isə həmin illər idi – böyük şəxsiyyət olan atasının haqsızlıqlara uğradığı vaxtlar. Azərbaycanı yox etməyə çalışan insanlara qarşı çıxan Heydər Əliyevin qəsdən vəzifədən kənarlaşdırıldığı günlər... Axı cəmi 3 il idi, anasını itirmişdi. Artıq 3 il idi ki, zərif əllər onun çiynindən çəkilmişdi. Bütün bunlara baxmayaraq, ailəsinin ağır yükünü çiyninə alıb çətin günlərdən də keçdi. Haqq-ədalət öz yerini tutanda xalqı yox olmaq təhlükəsindən xilas edib ayağa qaldıran dahinin ən yaxın silahdaşı oldu. Müasir Azərbaycan dövlətinin memarının Vətəni üçün etdiklərini görə-görə böyüdüyü üçün onu necə çətin bir yolun gözlədiyini o da yaxşı bilirdi.

Ömrünün 24 ilini anası, cəmi 42 ilini isə atası ilə keçirdi. Cəmi 42 yaşlı gənc siyasətçi ən böyük dayağından cismən ayrılanda Ulu Öndərin vaxtilə dediyi sözləri xatırlayaraq dik dayandı. Onun qarşısında bir yol var idi – xalqın Heydər Əliyevə olan sevgisi ilə yeridiyi yolu davam etdirən biri olmaq və ata vəsiyyətini yerinə yetirmək üçün irəliyə baxmaq.

Vətənin dahi oğlunun cismən bizdən ayrıldığı gün ümidli baxışlar da ona dikildi. Hər kəsin ümidi artıq ona idi. Bu xalq özü qədər inandığı xalqın atası Heydər Əliyevi çox sevdiyi Vətən torpağına tapşıranda Onun yarımçıq qalan işlərini tamamlamağa qadir tək insanın İlham Əliyev olduğuna əmin idi. Böyük dahinin son sözlərində ona özüm qədər inanıram deməsi və xalqı İlham Əliyevin ətrafında birləşməyə səslədiyi gün qəlbində Vətən eşqi olan hər bir azərbaycanlı gələcəyə ümidlə baxdı. Çünki bu xalqın bir milyon evsiz insanını öz yurduna qaytara biləcək tək insan Ulu Öndərin davamçısı idi. Yarımçıq qalan xəyalları yalnız o, gerçəyə çevirə bilərdi.

O, kürsüyə çıxıb Vətənə sədaqət andı içəndə ilk sözü Azərbaycanın ərazi bütövlüyünü qoruyacağı oldu. Bu elə-belə deyilən bir söz deyildi. Bizim haqq işimizin başlanğıcı idi. “Qarabağ Azərbaycandır!” demək idi.

İllər bir-birini əvəz etdikcə siyasi gücü və zəkası ilə hər addımda Ulu Öndərin davamçısı olduğunu sübuta yetirir, Azərbaycanın ərazi bütövlüyünü diplomatik danışıqlarla təmin etməyə çalışırdı. Amma və lakin qarşımızda dayanan düşmən azğınlaşaraq daha çox torpaq iddiası irəli sürdü. Düşmən baş naziri “Qarabağ Ermənistandır” sözləri ilə diplomatik masanı devirdi.

Həmin illərdə Ali Baş Komandanın “İrəli!” əmrini yerinə yetirmək üçün tələsən gənc nəslin nümayəndələri xüsusi olaraq yetişdirilir, döyüş tapşırıqlarını yerinə yetirmək üçün təlimlərə göndərilirdi. İqtisadiyyat gündən-günə gücləndirilir, ordumuz müasir silahlarla təmin edilirdi. Qələbəyə gedən yol ilmə-ilmə toxunur, ən az itki ilə torpaqlar geri alınmağa çalışılırdı. Sülh yolu ilə torpaqları azad etməyə səy göstərilirdi. Xalqın isə səbir kasası daşırdı. Və son damla 2020-ci ilin 27 sentyabr səhəri torpağa qanla qarışıb düşəndə müharibədən başqa yolumuz olmadığını gördük.

Həmin gün Ali Baş Komandanın xalqa müraciətində onun səsinin tonu da tamam fərqli idi. ***“Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin!”*** – deyəndə səsindəki titrəyiş Ulu Öndərin ***“Ayrılarmı könül candan”*** misrasını söyləyəndəki kimi idi. Çünki o da xalqını atası qədər sevir, hər bir azərbaycanlını öz doğması bilirdi.

Elə həmin gün siyasi libasını hərbi forma ilə dəyişən Ali Baş Komandan xalqına ***“Bizim işimiz haqq işidir, biz qələbə qazanacağıq”***, – deyərək səslənəndə hər kəs duydu böyük Zəfərin sədasını. 44 gün xalqı üçün yuxusuz qaldığı gecələrdə, hər qələbə xəbəri ilə xalqa müraciətində ona olan xalq sevgisi böyüyüb qoruyucu qalxana çevrildi. Bu xalq bir olub igid oğluna dayaq olduğu gün bütün dünya şahid oldu qaranlıq gecəni nura qərq edən Günəşin doğuşuna... Şahid oldu Vətənə qurban olan canlara, şəhid tabutu daşıyan gəlinlərə, al bayrağa bürünən tabutlar önündə kəsilən qurbanlara, çörəyini əsgərə göndərən analara, düşmənin tövləyə çevirdiyi məscidə ayaqyalın girən qalib Sərkərdəyə...

İllər sonra Şuşada atasının ***“Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya”*** ifadəsini eşidəndə, bəlkə də, Müzəffər Sərkərdənin xəyalında atası ilə qürur duyduğu gün – atasının general rütbəsi aldığı gün, ürəyində ona söz verdiyi gün canlanmışdı ki, gözləri yaşarmışdı. Axı o torpaqları işğaldan azad edən komandan olaraq həm də ata vəsiyyətini yerinə yetirən oğul olmaq şərəfini qazanmışdı. O, müasir Azərbaycanın memarının yarımçıq qalan işlərini yekunlaşdırmağa nail olmuşdu.

Bu dünyada ən böyük qürur ataya və anaya layiq övlad olmaq, ən böyük qazanc, ən dəyərli xəzinə isə xalqın sevgisinə sahib olub – xalqın oğlu adını qazanmaq şərəfidir, xalqın övladı ola bilməkdir. Çünki xalqın sevgisi əvəzsizdir. O bunu bacardı, adını tarixə Müzəffər Sərkərdə olaraq yazdı. Xalqın xilaskarının layiqli davamçısı, qızların qardaşı, anaların oğlu, ataların dayağı oldu. O, anasının gözlərinə nur bəxş etdiyi insanların Şuşada dalğalanan Azərbaycan Bayrağını görməsinə nail oldu, atasının Azərbaycan üçün arzularını gerçəyə çevirib Onun könlünün candan ayrılmadığını sübuta yetirdi.

Və beşyaşlı azərbaycanlı körpə qızın dilindən “Mən sizi tanıyıram. Siz Heydər babanın oğlusunuz”, 90 yaşlı seçicinin dilindən isə “Sizi and verirəm Allaha, mənə kömək edin Heydərin oğluna səs verim” sözlərini eşitmək şərəfinə çatdı…

**Ramiyə ƏKBƏROVA**

# 21-ci əsrin möhtəşəm 21 ili




*Azərbaycan xalqı onu tarixin ən ağır məngənəsindən, təlatümlərindən xilas edən, əbədi müstəqilliyə qovuşduran Ulu Öndər Heydər Əliyev yoluna bir daha sədaqət göstərməklə 21 il öncə öz sağlam, etibarlı gələcəyini təmin etdi. Və ötən qısa zaman* ***"...İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"*** *tarixi kəlamının müdrikliyini, uzaqgörənliyini və xalqımızın qərarının düzgünlüyünü ən bariz şəkildə ortaya qoydu...*

*Azərbaycanı dəyişən dünya düzəni fonunda qüdrətli ölkə kimi formalaşdıran, söz, nüfuz sahibinə çevirən əsas amil, sözsüz ki, müstəqil iqtisadiyyata malik olması, Şərqlə Qərb, Şimalla Cənub arasında mühüm ticarət-nəqliyyat mərkəzi funksiyasını uğurla yerinə yetirməsidir. Hazırda Avropa ilə Asiya arasındakı ticarət əlaqələrində mühüm tranzit mərkəzi sayılan Azərbaycanın istər regional müstəvidə, istərsə də beynəlxalq səviyyədə kifayət qədər strateji, etibarlı tərəfdaşa çevrilməsi, mühüm əməkdaşlıqlara imza atması bu baxımdan təsadüfi deyil, 21 illik praqmatik yanaşma, prinsipial mövqe və ən əsası iqtisadi, siyasi müstəqilliyin təntənəsidir.*

## və ya tarixi gedişatı dəyişən Lider

Bu gün "Cənub Qaz Dəhlizi" ideyası üzərində vacib addımlar atan, əməli iş ortaya qoyan respublikamız Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum, TANAP (Trans-Anadolu təbii qaz boru kəməri), TAP (Trans-Adriatik təbii qaz boru kəməri) qaz layihələri ilə dünya bazarlarında önəmli paya sahib olmaqla Avropanın enerji təhlükəsizliyinə ciddi töhfələr verir... Azərbaycan iqtisadiyyatına dair 2003-cü ildən bəri qarşıya qoyulan əsas məqsədlərdən ən mühümü, təbii ki, neftdən asılılığın tamamilə aradan qaldırılması və bu xüsusda qeyri-neft sektorunun inkişafına nail olunmasıdır. Son illərdə aparılan iqtisadi islahatlar, əlverişli biznes mühitinin formalaşdırılması yeni sənaye və istehsal sahələrinin yaradılmasına səbəb olub ki, bu da əsas hədəflərə çatmaq üçün geniş perspektivlərin açılmasına rəvac verib. Hazırda 8 rayonu əhatə edən və 9-cusu Naxçıvanda yaradılan "Araz Vadisi İqtisadi Zonası" Sənaye parkları layihəsi bu baxımdan uğurlu nəticələr göstərməkdədir. Eyni zamanda "yaşıl iqtisadiyyat"a keçidin reallaşdırılması, bu baxımdan Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın "yaşıl enerji zonası" elan olunması, həyata keçirilən tədbirlər, "yaşıl texnologiya"ların istehsalatda tətbiqi və digər mühüm addımlar qeyri-neft sektorunun inkişafını sürətləndirir. Nəticədə, sənayenin iqtisadiyyatdakı payı böyüyür, makro-iqtisadi göstəriciləri artır: 2003-2024-cü illərdə qeyri-neft-qaz iqtisadiyyatı 5,0 milyard ABŞ dollarından 41,1 milyard ABŞ dollarına yüksəlib. Kənd təsərrüfatı sektorunda 2,1, nəqliyyat sektorunda 4,9, turizm və ictimai iaşə sektorlarında 18,9, informasiya və rabitə sahəsində isə 23 dəfə artım qeydə alınıb. Son 21 ildə ölkədə qeyri-neft-qaz sənayesində istehsal 1,6 milyard manatdan 17,7 milyard manata yüksəlib. Paralel olaraq qeyri-neft ixracı 11,8 dəfə artaraq 0,3 milyard ABŞ dollarından 3,1 milyard ABŞ dollarına yüksəlib.

Azərbaycanın iqtisadi cəhətdən qüdrətlənməsi, mühüm tranzit əlaqələrinə malik olması onun etibarlı ticarət tərəfdaşı kimi tanınmasını, bu sayədə beynəlxalq əlaqələr sistemində, regional əməkdaşlıqda vacib aktora çevrilməsini şərtləndirib. Azərbaycan-İtaliya, Azərbaycan-Türkiyə, Azərbaycan-Rusiya, Azərbaycan-Çin. Etibarlı ticarət, mehriban dostluq əlaqələrindən xəbər verən bu siyahını kifayət qədər uzatmaq olar. Müqayisə üçün qeyd etmək yerinə düşər ki, 2022-ci ildə Azərbaycanın ticarət tərəfdaşları olan ölkələrin sayı 55-dən 185-ə çatıb.

Ölkə başçısı cənab İlham Əliyevin praqmatik düşüncədən yoğrulan məharətli diplomatiyası sayəsində son 21 ildə yaranan tarixi reallıq həm də Ulu Öndərin digər bir ***"İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir!"*** tarixi kəlamının da gerçəkliyini üzə çıxartdı. Bəli, danılmaz həqiqətdir ki, bu gün qarmaqarışıq, mürəkkəb geosiyasi mənzərəyə malik dünyada müstəqil siyasəti yalnız iqtisadiyyatı güclü, dayanıqlı olan ölkələr aparmağa qadir olur. Milli təhlükəsizlikləri də etibarlı olan həmin respublikalar öz ərazi bütövlüyünü əmin şəkildə qoruyur, bölgədə sabitlik yaradır, istənilən dialoqda diktə edən tərəf qismində çıxış edir. Buradan "Güclü iqtisadiyyat həm də güclü ordu, güclü dövlət deməkdir" tandemi yaranır ki, bu amilləri özündə birləşdirən qüdrətli dövlətlə bütün məsələlərdə hesablaşmalısan reallığı ortaya çıxır. Məhz Azərbaycanın da son 21 ildə qət etdiyi yol onun bu tandemi uğurla tamamlamasına və son nəticədə, ərazi bütövlüyü, suverenliyi tam təmin olunmuş qüdrətli dövlətə çevrilməsinə gətirib çıxartdı.

Ötən illərdə iqtisadiyyatdan əldə olunan gəlirin səmərəli şəkildə müasir ordu quruculuğu istiqamətinə yönləndirilməsi, o cümlədən yeni silahlı birliklərin yaradılması, ən müasir silah və texnikaların arsenala daxil edilməsi, müdafiə sənayesinin inkişafına xidmət etməklə qüdrətli Silahlı Qüvvələrin yaradılmasına səbəb oldu. Və beləliklə, qətiyyətli siyasi iradə və güclü ordu sayəsində düz dörd il bundan öncə sentyabrın 27-də başlanan zəfər yürüşü Böyük Qələbəyə, ərazi bütövlüyümüzün tam təminatına yol açdı. "Dəmir yumruq" ətrafında sıx birləşən Azərbaycan xalqı 200 illik tarixində ilk dəfə torpaqlarını bərpa edən müzəffər xalq, qətiyyətli siyasi iradəsi ilə xalqı irəli aparan Prezident cənab İlham Əliyev isə Müzəffər Ali Baş Komandan kimi adını tarixə qızıl hərflərlə yazdırdı. Qalib Liderin 2022-ci ilin aprel ayında Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında dediyi kimi: ***"Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir – hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün".***

Ötən il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə suverenliyi tam təmin olunan Azərbaycan postmüharibə dövründə də tarixi nailiyyətlərə imza atmaqdadır. Bu gün əzəli torpaqlarımız, Qarabağın hər qarışı cənnətə çevrilir, Şuşada, Xocalıda, Xankəndidə üçrəngli dövlət bayrağımız dalğalanır, soydaşlarımız öz yurdlarına geri dönür, mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz bərpa olunur...

Vətən müharibəsindən ötən 4 il ərzində Azərbaycan bölgədə, sözün əsl mənasında, yeni tarixi gerçəkliklər yaradıb ki, bu gerçəklik artıq əksər ölkə və beynəlxalq təşkilatlar tərəfindən birmənalı şəkildə qəbul olunur. Təsadüfi deyil ki, Prezident cənab İlham Əliyev son illərdə ŞƏT, MDB, TDT, BRICS və digər beynəlxalq əhəmiyyətə malik təşkilatların tədbirlərinə, konfranslara mötəbər qonaq, etibarlı tərəfdaş kimi dəvət olunur, dövlət başçısının dərinməzmunlu nitqləri aparıcı media orqanlarının manşetinə, siyasi ekspertlərin, politoloqların müzakirə predmetinə çevrilir. Son dörd ildə Azərbaycanın iştirakı ilə qurulan əməkdaşlıqlar dünya ictimai-siyasi elitası tərəfindən ölkəmizə, aparılan uğurlu diplomatiyaya verilən böyük dəyəri, etimadı göstərir. 2020-ci ildən bu günədək Azərbaycan uğurlu, etibarlı iqtisadi əməkdaş, ticari tərəfdaş olaraq nüfuz qazanmaqla yanaşı, həm də strateji müttəfiqlik nümunəsi də yarada bilib. Son dörd ildə 3 – Azərbaycan-Türkiyə, Azərbaycan-Rusiya və Azərbaycan-Özbəkistan strateji müttəfiqliklərinin əldə olunması regional əməkdaşlıq baxımından yeni perspektivlər açmaqla yanaşı, bölgənin təhlükəsizliyinə, əmin-amanlığa da xidmət edir...

Azərbaycan dünyanın yeganə ölkələrindəndir ki, qazandığı iqtisadi güc, siyasi nüfuzla heç bir zaman qürrələnmir, əksinə, bu üstünlüyü humanizmə, haqq-ədalətin bərqərar edilməsinə yönəltməyi gözəl bacarır. Başqa sözlə, öz mənafeyindən daha çox regional vəziyyəti düşünür, müharibəsiz, münaqişəsiz bölgə yaratmaq naminə sülhə, dialoqa körpü salır. Bəli, 21 illik İlham Əliyev diplomatiyasının məqsədi, hədəfi məhz bir amala xidmət edir: ədalətli dünya, ədalətli region formalaşdırmaq. Azərbaycan BMT-dən sonra ikinci beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının dördillik uğurlu sədri, 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi mühüm təşəbbüslər irəli sürərək BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum keçirməklə bunu ən bariz şəkildə sübut edib. 2024-cü ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını (COP29) yüksək səviyyədə keçirməklə, mühüm tarixi qərarların qəbuluna nail olmaqla Azərbaycan iqlim dəyişmələrindən ən çox zərər görən kiçik ada dövlətlərinin sözünü deyib, haqqını müdafiə edərək ədaləti hər şeydən üstün tutduğunu dünyaya bəyan etmiş oldu...

Otuzillik Qarabağ sindromunu təkbaşına sındıran Azərbaycanın gücü, qüdrəti uğurlu xarici siyasətlə yanaşı, daxili siyasi xəttinin də düzgün, koordinasiyalı formada qurulmasındadır. Bu baxımdan təsadüfi deyildir ki, Azərbaycan beynəlxalq aləmdə sabitlik adası və paralel olaraq inkişaf məkanı kimi tanınır. Təbii ki, bunu şərtləndirən amillər sırasında ideoloji təhlükəsizliyin təmini ilə yanaşı, sosial siyasətin uğurla reallaşdırılması da dayanır. Belə ki, 2003-cü ildən bu günə kimi iqtisadiyyatın gücləndirilməsi ilə yanaşı, dövlətimizin başçısı tərəfindən imzalanan fərman və sərəncamlar 15-dən çox yeni aylıq sosial ödəniş növünün təsis edilməsinə, habelə pensiya təminatında humanist yanaşmaların tətbiqi sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişlənməsinə imkan yaradıb. Verilən açıqlamalara görə, gələn il minimum əməkhaqqı və minimum pensiyanın artırılması, pensiyaların indeksləşdirilməsi proqnozlaşdırılır. Ümumilikdə, sosial paket 3 milyon insanı əhatə edəcək...

Ulu Öndər ideyalarını müasir çağırışlara uyğun şəkildə gerçəkləşdirən, siyasi yolun layiqli davamçısı, Müzəffər Lider İlham Əliyevlə əsrimizin möhtəşəm 21 ilini arxada buraxan Azərbaycan bu dövrdə əldə etdiyi nailiyyətlərlə daha böyük hədəflərə doğru irəliləyir. 1993-cü ildən bəri başlayan, 2003-cü ildən sonra yeni mərhələyə yüksələn milli birlik, milli həmrəylik və xalq-iqtidar birliyindən güc alan ölkəmiz üçün tarixi qələbələr bundan sonra da davam edəcək. Sözü ilə imzası bir olan Müzəffər Ali Baş Komandanın da dediyi kimi: ***"Bizdə nə görürük – daxili sabitlik, milli birlik, milli həmrəylik, xalq-iqtidar birliyi. Bax bu bizim siyasətimizin böyük nəticəsidir. Bizim bütün addımlarımız və mənim Prezident kimi 2003-cü ildən bu günə qədər bütün addımlarım Azərbaycanın gücləndirilməsinə yönəldilmişdir".***

**Nail ƏSGƏROV**

# Azərbaycan heç kimdən asılı olmadan müstəqil siyasət yürüdən ölkədir



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru ilə müsahibəsinə baxış***

Dekabrın 18-də dövlət başçımız Prezident cənab İlham Əliyev rusiyalı jurnalist Dmitri Kiselyova verdiyi müsahibədə güclü və müstəqil Azərbaycanın dövlət başçısı kimi bugünkü dünyada və yaxın regiondakı geosiyasi vəziyyətin, həmçinin yaxın və uzaq keçmişdəki siyasi hadisələrin dərin təhlilinə əsaslanaraq ölkəmizin gələcək mövqeyini ortaya qoymaq baxımından bir daha diqqətçəkən məqamlar ifadə etdi. Bu, ölkəmizin şimal qonşusu və sıx iqtisadi-mədəni əməkdaşlığı olmaqla yanaşı, həm də aralarında Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzalanmış Rusiyanın gələcəkdə Azərbaycandan nə gözlədiyini bir daha bilmək baxımından da diqqəti cəlb edirdi. Rusiyalı jurnalistin "Azərbaycanla Rusiya arasında müttəfiqlik nə deməkdir?" sualına dövlət başçımızın bir çox cəhətdən xarici siyasət prioritetləri üst-üstə düşən tarixən iki qonşu dövlətin müttəfiq olmasının da hər sahədə faydalı olacağını, Rusiyanı narahat edən məsələlərin eynilə Azərbaycan Respublikası üçün də aktual olduğunu bildirməsini burada xüsusilə qeyd etmək lazımdır. Şübhəsiz, iki tərəfdən hər gün, təxminən, 3 min nəfərədək hərbçinin həlak olduğu dağıdıcı Rusiya-Ukrayna müharibəsi uzandıqca regiondakı vəziyyətin hər kəs üçün yaratdığı təhlükə, mümkün NATO-Rusiya qarşıdurması zamanı yaranacaq fəlakət ssenarisinin ön görülməsi və yeni seçilmiş ABŞ dövlət başçısının hələ də tam şəffaf olmayan xarici siyasət prioritetləri fonunda etibarlı tərəfdaş və müttəfiq kimi Azərbaycanın mövqeyini onun dövlət başçısının dilindən dinləmək bu gün bir çoxlarına çox vacib olan məqamdır. Şübhəsiz, Azərbaycandan min kilometrlərlə uzaqda olsa da, nədənsə bizi hələ də istəməyən bir neçə dövlətlə müqayisədə dostlarımızın sayı dəfələrlə çoxdur və bu gün ölkəmizin tutduğu inkişaf yolu, müstəqil xarici siyasətin bir çoxları üçün təhlil obyekti olması da tamamilə obyektivdir.

Təkcə ölkəmizdə və rusdilli auditoriyada deyil, eləcə də bütün dünyada maraqdoğuran bu müsahibədə dövlət başçımız cənab İlham Əliyev ilk olaraq qardaş Türkiyə ilə olan yüksəksəviyyəli hərtərəfli münasibətlərimizə toxunaraq bunun iki dövlət arasında tarixi doğmalıq və hərbi-strateji sahədə əməkdaşlıqdan, həm də zərurətdən yarandığını vurğulaması diqqəti cəlb edir.

Bu zərurəti yaradan isə Prezidentimizin dəfələrlə vurğuladığı kimi, şübhəsiz, qlobal təhlükəsizlik arxitekturasının zəifləməsi və hətta işləməməsi, eləcə də təcavüzkar Ermənistanın 30 ildən artıq müddətdə ölkəmizə qarşı yürütdüyü işğalçılıq siyasətinə son qoymaq üçün həyata keçirdiyi müdafiə doktrinasıdır.

Azərbaycan işğala son qoydu və tam suverenliyini bərpa etdi. İndi ermənilərə havadar çıxıb hər yerindən onları tutan rüsvayçı Fransa və onun kimi bəzi ölkələrin xoşuna gəlməsə də, Azərbaycanın öz suverenliyini bərpa etməsi onun tam hüquqdur və Qarabağın da Azərbaycanın tərkib hissəsi olmasını, hətta Ermənistan belə rəsmən qəbul etmişdir. Odur ki, hazırda davam edən sülh müqaviləsi üzərində aparılan danışıqları axsatmaq üçün Fransa, Hindistan və ABŞ-nin Ermənistanı silahlandırma dəstəyi, əslində, onları növbəti fiaskoya aparan qızışdırıcı əməldən başqa bir şey deyildir. Çünki Azərbaycanın kifayət qədər olan hərbi büdcəsi bu cür aqressiv hərəkətlərə qarşı ordumuzu həmişə hazır olmağa imkan yaradır.

Halbuki hələ Qarabağdakı birgünlük antiterror əməliyyatına qədər Azərbaycan tərəfi buradakı erməni icması ilə reinteqrasiyaya həmişə açıq olmuş, bunu müxtəlif kanallarla bəyan etmişdir. Lakin əksəriyyətinin cinayət əməllərinə bulaşdığı üçün bir daha Qarabağda qala bilməyəcəyi səbəbindən ermənilərin könüllü olaraq buranı tərk etməsindən sonra da Ermənistandan deportasiya olunmuş 300 min azərbaycanlının yenidən öz doğma torpaqlarına qayıtmasını tamamilə qanuni hesab edən dövlət başçımız məğlub ölkə ilə bağlanılacaq sülh müqaviləsində bunun vacibliyini xüsusilə qeyd etməklə, əslində, yeni siyasi parametrləri də rusiyalı jurnalist timsalında dünyaya bəyan etdi. Çünki 30 illik işğalın və müharibənin vurduğu yaraları sağaltmaq üçün ictimai konsensus bu gün olduqca vacibdir və bu, mütləq nəzərə alınmalıdır. Azərbaycan isə hazırda Qarabağ və Şərqi Zəngəzurda dinc quruculuq və qayıdış işləri ilə məşğuldur və sevindirici haldır ki, ölkəmizin digər dostları ilə birgə hazırda bu yenidənqurma işlərində Rusiya tərəfi də rəsmi simvolik dəstək göstərir, rus şirkətləri ilə bu işlərdə iqtisadi əməkdaşlıq aparılır.

Müasir dünyanı narahat edən iqlim dəyişikliyi və davamlı enerji təminatı məsələləri dövlət başçımızın da daimi olaraq gündəliyindədir. Belə ki, bu ilin noyabrında dünyanın diqqət mərkəzində olmuş, Bakının ev sahibliyindəki COP29 iqlim konfransında da qeyd olunduğu kimi, Azərbaycan qlobal iqlim dəyişikliyinə qarşı mübarizəyə sənayesinin səbəb olduğundan on dəfələrlə artıq müsbət töhfə verən və bu sahədə beynəlxalq birliyin öndə gedən ölkələrindən biri kimi həmişə diqqət mərkəzində olub və dövlət başçımız da hər çıxışında bu məsələ ilə bağlı öz mövqeyini qəti olaraq bildirməkdədir. Günəşli ölkəmizin ehtiyaclarından dəfələrlə artıq nəhəng həcmdə təmiz, bərpa olunan enerji potensialına malik olması, bunu istehsal edib, Avropaya ixrac etmək barədə dövlət başçımızın planları rusiyalı jurnalistin "Azərbaycanda atom elektrik stansiyası lazımdırmı?" sualına qarşı ən yaxşı yumşaq cavab idi. Amma Prezidentimizin də vurğuladığı kimi, iqtisadiyyatın bir sahəsi kimi Azərbaycanın da nüvə energetikasına maraq göstərməsi üçün kifayət qədər iqtisadi və intellektual potensialı vardır. Bu, ümumiyyətlə, dövlət başçımızın "yaşıl iqtisadiyyat"a və dünyanın gələcəyinə baxışı kimi rusiyalı jurnalistin auditoriyasının uzun müddət unuda bilməyəcəyi bir yanaşma oldu.

Bəli, Azərbaycan dünyada ədalətin tərəfindədir. O ədalət ki pulu çox, ordusu güclü olanın digər zəif xalqlar üzərində yüz illər əvvəl olduğu kimi ağalığı bir daha olmasın, insanlar yaşadığı torpağın sərvətlərindən özləri bəhrələnə bilsinlər. Bu mənada, Afrikanı, Asiyanı, Yaxın Şərqi, Cənubi Amerikanı, Okeaniyanı piroq dilimi kimi bölməyə adət etmiş kolonialist Qərbin keçmişinin və sanki onların acığına bu gün də qonşudan torpaq payı qoparmaqdan zövq duyanların əksinə olaraq Azərbaycan yalnız Uca Ədalətin təntənəsi üçün yaşayıb, mübarizə aparıb və öz gələcəyini qura bilən azsaylı ölkələrdən biridir. Ermənistanı özünə tabe etmiş, Gürcüstanı yenidən qarışdıraraq Cənubi Qafqazı alovlandırmaq istəyən güclərə qarşı apardığı balanslı siyasətin bəhrəsini görən dövlət başçımız da Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi xarici siyasət kursunu uğurla davam etdirərək bu gün qaynar müharibə ocaqlarına səsləndiyi sülh çağırışları ilə həmişə siyasətin gündəmini müəyyən etməyə davam edir. Çünki Azərbaycan heç kimdən asılı olmadan müstəqil siyasət yürüdən ölkədir.

**Əli CABBAROV**

# Naxçıvanda "Heydər Əliyev və Azərbaycan Həmkarlar İttifaqları" mövzusunda konfrans keçirilib

Dekabrın 17-də Naxçıvan şəhərində muxtar respublikanın 100 illiyi çərçivəsində "Heydər Əliyev və Azərbaycan Həmkarlar İttifaqları" mövzusunda konfrans keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və AHİK-in üzv təşkilatı Naxçıvan Həmkarlar İttifaqı Şurasının birgə təşkilatçılığı ilə keçirilən konfransın iştirakçıları əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub.

Heydər Əliyev Sarayında təşkil edilən tədbirdə müasir müstəqil Azərbaycanın qurucusu Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.





Konfrans iştirakçılarını salamlayan və təşkilatçılara təşəkkürünü bildirən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixindəki müstəsna rolundan, xilaskarlıq missiyasından, dövlət quruculuğu siyasətindən söz açıb, Naxçıvanın həyatında dahi rəhbərin gördüyü işləri, sabitliyin təmin olunması və sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması istiqamətində atdığı mühüm addımları qeyd edib. Bildirilib ki, 1990-1993-cü illərdə Naxçıvanda fəaliyyət göstərən böyük şəxsiyyət bu il 100 illik yubileyi qeyd edilən muxtar respublikanı bütün təhdidlərdən qoruyub, müstəqil dövlətçiliyimizin əsaslarını məhz burada işləyib hazırlayıb. Muxtar respublikanın inkişafının yeni dövrünə qədəm qoyduğunu diqqətə çatdıran Fuad Nəcəfli qeyd edib ki, bu gün Naxçıvan Dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkəmizin siyasi-iqtisadi qüdrətinin yüksəlməsində yaxından iştirak edir.

Konfransda çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov adı tariximizə qızıl hərflərlə yazılan Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz üçün əsrlərə bərabər nəhəng işlər gördüyünü, gələcək nəsillərə zəngin irs, dövlətçilik ənənələri miras qoyduğunu vurğulayıb.

Ardı 6-cı səhifədə






Ümummilli Liderin rəhbərliyi ilə həyata keçirilən sistemli və kompleks tədbirləri qeyd edən konfederasiya sədri xalqın xahişi və təkidli tələbi əsasında Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıtmasından sonra həmkarlar ittifaqlarının da həyatında əsaslı dönüş yarandığını diqqətə çatdırıb. 1994-cü ildə postsovet məkanında ilk dəfə məhz Azərbaycanda “Həmkarlar İttifaqları haqqında” Qanunun qəbul olunması, işçilərin sosial müdafiəsinə yönəlmiş çoxsaylı normativ-hüquqi aktların qəbulu, Beynəlxalq Əmək Təşkilatının əsas konvensiyalarının ratifikasiyası Ulu Öndərin müdrik və uzaqgörən siyasətinin nəticəsi və vətəndaş cəmiyyətinin inkişafına verdiyi dəyərin təzahürüdür. Konfederasiya sədri Ümummilli Liderin siyasi kursunu Prezident cənab İlham Əliyevin böyük uğurla davam etdirdiyini vurğulayaraq ölkəmizin ərazi bütövlüyünün bərpasının, Azərbaycanın sürətli inkişafının Heydər Əliyev ideyalarının reallaşdırılmasının məntiqi nəticəsi olduğunu diqqətə çatdırıb. Ulu Öndərin işıqlı ideyalarının təbliği, zəngin siyasi irsinin öyrənilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun xidmətlərini xüsusi qeyd edən Sahib Məmmədov fondun sosial layihələrinin həmkarlar ittifaqları üçün əsl örnək olduğunu vurğulayıb.

AHİK sədrinin müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev çıxışında Ulu Öndərin tarixi və misilsiz xidmətlərindən bəhs edib.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev muxtar respublikanın 100 illik tarixi inkişaf yolundan, qazanılan uğurlarda Ümummilli Liderin əvəzsiz xidmətlərindən bəhs edib.

Sonra tədbirdə Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü və həmkarlar ittifaqlarına göstərdiyi diqqət və qayğıdan bəhs edən videoçarx nümayiş olunub.

Tədbir bədii hissə ilə davam edib.

# Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş maliyyə forumu



Dekabrın 18-də Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş maliyyə forumu keçirilib.

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin təşkilatçılığı ilə keçirilən forumun iştirakçıları əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüblər.

Sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq olub.

“Naxçıvan Saray”da davam edən tədbirdə Ulu Öndərin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli forum iştirakçılarını salamlayaraq Naxçıvanın muxtariyyət və inkişaf tarixinə nəzər salıb. Qeyd edib ki, Naxçıvan muxtariyyət qazandıqdan sonra 1970-ci ilə qədər məqsədli şəkildə inkişafdan kənarda saxlanılıb. Lakin Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə muxtar respublikanın həyatında yeni mərhələ başlanıb. Ulu Öndərin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi isə muxtar respublikanı növbəti işğal təhlükəsindən qoruyub, müstəqil dövlətçiliyimizin əsasları bu torpaqda işlənib hazırlanıb. Bu gün 100 illik muxtariyyət tarixini qeyd edən Naxçıvan Zəngəzur dəhlizinin açılması və Dövlət Proqramının icrası perspektivlərində daha böyük inkişaf və tərəqqiyə hədəflənib. Bu da müdrik dövlət xadimi, ölkə Prezidenti cənab İlham Əliyevin liderlik fəaliyyətinin nəticəsidir.

Son 2 ildə muxtar respublikada yeni idarəetmə metodunun tətbiqi sahəsində aparılan islahatların həm də maliyyə sektorunu əhatə etdiyini diqqətə çatdıran səlahiyyətli nümayəndə xüsusilə vurğulayıb ki, ölkə Prezidentinin tapşırıqlarına uyğun olaraq maliyyə intizamının gücləndirilməsi, büdcənin düzgün tərtibi və icrası, yerli gəlirlərin artırılması və dotasiyanın azaldılması istiqamətində ardıcıl işlər aparılır. Əgər 2 il bundan öncə Naxçıvan Muxtar Respublikası büdcəsində yerli gəlirlər 20-25 faiz idisə, bu ilin sonunda yerli gəlirlərin həcmi 50 faizdən yüksək olacaqdır. Ötən 2 ildə muxtar respublikada dövlət satınalmalarının qanunvericiliyin tələblərinə uyğun tətbiqi sahəsində də sistemli iş aparılır ki, bu da dövlət vəsaitindən təyinata uyğun düzgün istifadəni təmin edir.




Fuad Nəcəfli maliyyə forumunda yeni hədəflərin müəyyənləşəcəyini və muxtar respublikada dövlət-maliyyə siyasətinin həyata keçirilməsi sahəsində faydalı olacağını bildirib, forumun işinə uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə təbriklərini çatdıran Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov ölkə başçısının maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi ilə bağlı verdiyi tapşırıqların muxtar respublikanın inkişafı üçün hazırlanan strateji sənədlərdə də öz əksini tapdığını diqqətə çatdırıb. Qeyd edib ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın Tədbirlər Planında “Dövlət müəssisə və şirkətlərinin fəaliyyətində maliyyə hesabatlılığı və şəffaflığın gücləndirilməsi” bəndi nəzərdə tutulub.

Vüqar Gülməmmədov vurğulayıb ki, ötən ildən muxtar respublikada aparılan audit və təhlillər bəzi sahələr üzrə irəliləyişlərin olduğunu göstərir. Belə ki, büdcənin icrası barədə və satınalmalara dair hesabatların vaxtında təqdim olunması, malların, iş və xidmətlərin “Dövlət satınalmaları haqqında” Qanunda göstərilmiş prosedur və metodlar tətbiq olunmaqla alınmasının genişləndirilməsi, əmtəəsiz alış əməliyyatlarının azalması kimi bir çox istiqamətlərdə müsbət dəyişikliklər qeydə alınıb. Bununla belə dövlət auditinin nəticələri hələ də təkmilləşdirilməli sahələrin olduğunu göstərir.

Hesablama Palatasının sədri rəhbərlik etdiyi qurumun 2021-2025-ci illəri əhatə edən Strateji Planında hədəflərdən birinin də maraqlı tərəflərlə əməkdaşlığın genişləndirilməsi olduğunu vurğulayıb. Qeyd edib ki, bu hədəf üzrə görüləcək ən vacib tədbirlər sırasında dövlət orqanları üçün dövlət maliyyəsinin müxtəlif sahələrində təlimlərin keçirilməsi ilə dəstəyin verilməsidir. Gələcəkdə muxtar respublikada fəaliyyət göstərəcək kadr potensialının gücləndirilməsi üçün Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlığa başlanılıb. Növbəti ildən “Dövlət auditi” proqramı üzrə praktiki təlimlər keçiriləcəkdir.

Azərbaycan Respublikası maliyyə nazirinin müavini Azər Bayramov çıxışında qeyd edib ki, son 22 ildə Naxçıvan Muxtar Respublikasının büdcəsinin həcmi 13,2 dəfə artaraq 539,3 milyon manata çatıb. Bununla yanaşı, muxtar respublikanın büdcəsinin öz gəlirləri 16,5 dəfə artaraq 202,8 milyon manata yüksəlib. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda icrası planlaşdırılan tədbirlərin maliyyə təminatı məqsədilə Milli Məclis tərəfindən qəbul edilən gələn ilin dövlət büdcəsində 150 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Gələn il dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən muxtar respublikaya ayrılan dotasiya 285,7 milyon manat təşkil edəcəkdir. Naxçıvan Muxtar Respublikasının öz gəlirləri isə 219,5 milyon manat proqnozlaşdırılır.






Maliyyə nazirinin müavini bildirib ki, bu il Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinin Naxçıvan Xəzinədarlıq İdarəsi yaradılıb. Artıq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 15-dən çox mərkəzi icra hakimiyyəti orqanının yerli bölmələrinə xəzinə xidmətlərinin göstərilməsi sözügedən idarə tərəfindən həyata keçirilir. Ümumilikdə, idarə tərəfindən il ərzində 500 milyon manatdan çox məbləğdə vəsait üzərində xərc əməliyyatlarının aparılması nəzərdə tutulur. Bununla yanaşı, hazırda muxtar respublikanın dövlət Xəzinədarlığın İnformasiya İdarəetmə Sisteminə və Büdcə Məlumat İdarəetmə Sisteminə qoşulması istiqamətində işlər aparılır.

Forumda Milli Məclisin deputatı Ziyad Səmədzadə və Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov çıxış edib, Naxçıvan Muxtar Respublikasında aparılan islahatların müsbət nəticələrindən bəhs ediblər.

Sonra Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş videoçarx təqdim olunub.

Forum maliyyə və vergi istiqamətləri üzrə panel müzakirələrlə öz işini davam etdirib.

Qeyd edək ki, muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının, iri sahibkarlıq subyektlərinin rəhbərləri və onların maliyyə-mühasibatlıq üzrə məsul şəxslərinin iştirak etdiyi maliyyə forumunun məqsədi mühasibat uçotunun beynəlxalq standartlara uyğunlaşdırılması, vergi münasibətlərinin səmərəliliyinin artırılmasının konkret aspektlərinin vacibliyini nəzərə alaraq bu sahədə maarifləndirmə işi aparmaqdır.

# Səlahiyyətli nümayəndə növbəti vətəndaş qəbulu keçirib



Dekabrın 19-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan şəhərində vətəndaşları qəbul edib.

Səlahiyyətli nümayəndə şəhər sakinlərinin, o cümlədən şəhid ailəsi üzvləri və qazilərin hər birini fərdi qaydada qəbul edib, onların müraciətlərini dinləyib. Vətəndaşların qaldırdıqları problemlərlə bağlı qanunvericiliyin tələbləri izah olunub, məsələlərin həlli nəzarətə götürülüb.

Bildirilib ki, müraciətlərin hər biri protokollaşdırılaraq həlli istiqamətində qanunvericiliyin tələblərinə uyğun tədbirlər görüləcək.



# “Naxçıvan birinci liderlik və inkişaf platforması” keçirilib

Dekabrın 19-da Naxçıvan Təlim Mərkəzinin təşkilatçılığı ilə “Naxçıvan birinci liderlik və inkişaf platforması” çərçivəsində təlim və intellektual oyun təşkil olunub.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli “Naxçıvan birinci liderlik və inkişaf platforması” iştirakçıları qarşısındakı çıxışında mövcud təcrübəyə istinad edərək liderlik bacarığına yiyələnmək üçün səbir, dözüm və özünüinkişaf amillərinin əhəmiyyətindən danışıb. Bildirib ki, insan çalışdığı sahədən asılı olmayaraq, bütün məsələlərə özü cavabdehlik daşıyır. Buna görə də hər kəs daim fərdi inkişafını diqqətdə saxlamalı, müasir dövrün tələbləri ilə uyğunlaşmalıdır.

İkinci Qarabağ müharibəsindəki parlaq qələbəmizdən sonra hər bir azərbaycanlı gəncin milli qürur hissinin daha da yüksəldiyini vurğulayan Fuad Nəcəfli gənclərimizin qarşılarına qoyduqları məqsədə çatacaqlarına inandığını bildirib. Səlahiyyətli nümayəndə qeyd edib ki, məqsədə çatmaq üçün hədəflərin davamlılığını da təmin etmək lazımdır.





İştirakçıları salamlayan “Naxçıvan Təlim Mərkəzi” İdarə Heyətinin sədri Tağı Tağızadə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrasının təmin edilməsi məqsədilə rəhbərlik etdiyi qurumun yaradılmasının əhəmiyyətini diqqətə çatdırıb. Bildirib ki, mərkəz muxtar respublikanın dövlət orqanlarında çalışan işçilərin peşəkar inkişafının dəstəklənməsi, gənclərin şəxsi və peşəkar inkişafı üçün müxtəlif mövzularda kursların təşkili və təlimlərin keçirilməsi, eyni zamanda peşə qabiliyyətlərinin yüksəldilməsi məqsədilə fəaliyyət göstərir.

“Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini İlhamə Novruzova “Effektiv kommunikasiya və liderlik bacarıqları” mövzusunda təlim keçib. Təlim zamanı iştirakçılar interaktiv tapşırıqları icra ediblər.

Daha sonra iştirakçılar Azərbaycan Gənclər Fondunun Naxçıvan filialının təşkil etdiyi “Kim, nə, harada?” intellektual oyununa qatılıblar.

Təlimin gedişində fərqlənən iştirakçılara sertifikatlar, intellektual yarışın qaliblərinə isə mükafatlar təqdim olunub.

“Naxçıvan birinci liderlik və inkişaf platforması” “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyəti və “Alya” kitab mağazasının dəstəyi ilə baş tutub.

# “Azərbaycanın dövlət və hüquq tarixində Naxçıvan” mövzusunda elmi-praktiki konfrans təşkil edilib






Dekabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə muxtar respublikanın 100 illik yubileyinə həsr olunmuş “Azərbaycanın dövlət və hüquq tarixində Naxçıvan” mövzusunda elmi-praktiki konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Sonra Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

“Naxçıvan Saray”da davam edən tədbirdə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, Naxçıvan Azərbaycanın hüquqi dövlətçilik tarixində mühüm yerə malikdir. Lakin bu bir həqiqətdir ki, Naxçıvanın Azərbaycanın dövlət və hüquq tarixindəki yeri Ümummilli Liderimiz Heydər Əliyevin siyasi fəaliyyəti ilə birbaşa bağlıdır. Ulu Öndərin rəhbərliyi ilə 1990-1993-cü illərdə Naxçıvanda Azərbaycanın dövlətçilik və hüquq tarixinə qızıl hərflərlə yazılan tarixi qərarlar qəbul edilib. Müstəqil Azərbaycana rəhbərliyi dövründə də Ulu Öndər Naxçıvanda hüquq institutlarının inkişafı sahəsində kompleks tədbirlər həyata keçirib, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası təsdiq edilib.

Səlahiyyətli nümayəndə bildirib ki, ötən 30 ilə yaxın bir dövrdə Naxçıvan Muxtar Respublikasında hüquq-mühafizə orqanlarının və məhkəmələrin fəaliyyətinin təşkili üçün dövlət tərəfindən əlverişli şərait yaradılmasına baxmayaraq, ədalət mühakiməsinin səmərəliliyi qənaətbəxş olmayıb. Lakin ölkə Prezidentinin tapşırıqlarına uyğun olaraq 2023-cü ilin yanvar ayından etibarən Naxçıvan Muxtar Respublikasında məhkəmələrin fəaliyyətinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, Ali Məhkəmədə kadr islahatları aparılıb. Artıq muxtar respublikada vaxtilə hüquqları pozulmuş vətəndaşların müraciətlərinə məhkəmələr tərəfindən ədalətli formada baxılır. 2023-cü il və 2024-cü ilin 11 ayında vaxtilə hüquqları pozulmuş sakinlər tərəfindən kompensasiya tələbi ilə Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin icraatına 1308 iş daxil olub, onlardan 683 iş üzrə iddia tələbi cavabdeh orqanlar tərəfindən təmin edildiyindən, 258 iş iddiaçılar tərəfindən iddia ərizələri geri götürüldüyündən icraatına xitam verilib, 66 iş mülkiyyət sənədləri olmadığından mümkün sayılmayıb, 301 iş isə hazırda icraatdadır. Ötən 2 ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi rəhbəri tərəfindən qəbul edilmiş 106 hüquqi akta əsasən vaxtilə qanunvericilik normalarına zidd olaraq təsdiq edilmiş 94 hüquqi akt ləğv edilib, 135 hüquqi aktda isə dəyişikliklər aparılıb.

Fuad Nəcəfli ölkə Prezidentinin rəhbərliyi ilə dövlətçiliyimizin möhkəmləndirilməsi və hüquq islahatlarının əhatə dairəsinin genişləndirilməsi istiqamətində görülən işlərin Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında bundan sonra da ardıcıl şəkildə yerinə yetiriləcəyini əminliklə diqqətə çatdırıb, bu yolda hər kəsə uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi çıxışında qeyd edib ki, Naxçıvanın muxtariyyəti dövründə muxtar respublikanın məhkəmə-hüquq sistemi uzun tarixi inkişaf yolu keçib, bu tarix Naxçıvan Muxtar Respublikasının, bütövlükdə, Azərbaycanın tarixi ilə sıx bağlı olub, ölkənin və muxtar respublikanın müxtəlif zaman kəsiyində yaşadığı dövrü özündə əks etdirib.

Səadət Bəktaşi bildirib ki, Ulu Öndər Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkədə siyasi, iqtisadi, mədəni islahatlarla yanaşı, genişmiqyaslı hüquq islahatlarının da aparılmasına start verildi. 1991-ci ildə SSRİ-nin süqutu, Azərbaycanın dövlət müstəqilliyi əldə etməsi məhkəmə quruluşunun, ədalət mühakiməsi qaydalarının daha geniş və köklü şəkildə dəyişdirilməsini tələb edən islahatların aparılmasını zəruri edirdi. Bu islahatların bünövrəsində Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dayanır.

Ali Məhkəmənin sədri vurğulayıb ki, ölkədə aparılan islahatlar Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən mərhələlərlə davam etdirilib. Bir tərəfdən qanunvericiliyə gətirilən yeniliklər, digər tərəfdən isə məhkəmələrin maddi təminat məsələlərinə göstərilən diqqət, o cümlədən hakimlərin, məhkəmə personalının iş şəraitinin müasir meyarlar səviyyəsinə çatdırılması muxtar respublikada fəaliyyət göstərən məhkəmələr tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi üzrə vəzifələrin keyfiyyətlə yerinə yetirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli şəkildə müdafiə olunmasına xidmət edir.

Konfransda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək muxtar respublikanın son 100 ildə keçdiyi yolun tarixi və siyasi detalları barədə mühüm məqamları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Naxçıvan Muxtar Respublikası prokuroru Sənan Paşayev muxtar respublikanın hüquq-mühafizə orqanlarının inkişaf tarixi barədə məlumat verib.

Konfransda, həmçinin Naxçıvan Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Şəhla Şirəliyevanın və Naxçıvan Şəhər Məhkəməsinin sədri Gülnar Səfərəliyevanın çıxışları dinlənilib.

Sonda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin əməkdaşı, Naxçıvan Yazıçılar Birliyinin üzvü Məftunə Hüseynbəyli “Naxçıvan” poemasından bir parça səsləndirib.



# “Şərq qapısı” qəzetinin hazırladığı “100 ilin qəhrəmanları” kitabının təqdimat mərasimi olub

Naxçıvan Dövlət Milli Dram Teatrında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” 2023-cü il 30 dekabr tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilən Tədbirlər Planına uyğun olaraq “Şərq qapısı” qəzetinin hazırladığı “100 ilin qəhrəmanları” adlı kitabın təqdimat mərasimi keçirilib. Mərasimdə şəhidlərimizin və xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.



Ardı 8-ci səhifədə



Tədbirdə Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov çıxış edərək bildirib ki, Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident cənab İlham Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının inkişafına hər zaman böyük həssaslıqla yanaşıb, zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik bu qədim diyarın muxtariyyət tarixinin öyrənilməsinin və təbliğinin zəruriliyini mühüm vəzifə kimi qarşıya qoyub. Ölkə başçısı cənab İlham Əliyevin 2023-cü il dekabrın 30-da “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında” imzaladığı Sərəncam da göstərilən qayğının əyani təzahürüdür. Sərəncama əsasən muxtar respublikanın 100 illik yubileyi bu il ərzində geniş qeyd olundu, bir sıra tədbirlərlə daha yaddaqalan oldu.

Sərəncama əsasən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə dair Tədbirlər Planı”na uyğun olaraq “100 ilin qəhrəmanları” adlı kitabın nəşr edildiyini diqqətə çatdıran Baş nazir qeyd edib ki, igid oğullarımızın qəhrəmanlıq hekayələrinin qələmə alınması, gələcək nəsillərə çatdırılması vacib vəzifələrdən biridir. Vətəni qanı, canı bahasına qoruyan qəhrəmanlarımızın adlarını, xatirələrini yaşatmaq üçün bu sahədə nümunəvi addımlar atılır. Qələmə alınan hər sətir o zaman xalqın sərvətinə çevrilir ki, o, qəzetdə öz əksini tapsın, kitab halında nəşr edilsin. Təqdimatına yığışdığımız bu kitab da məhz onlardan biridir. “Şərq qapısı” qəzetinin “100 ilin qəhrəmanları” layihəsi çərçivəsində ərsəyə gətirdiyi kitabda da igid oğullarımızın şücaəti öz əksini tapıb.

Baş nazir Ceyhun Cəlilov şəhidlərimizin həyat və döyüş yolunu qələmə alıb, yaddaşa köçürməyi özünə borc bilən, kitabın ərsəyə gəlməsində əməyi olanlara, “Şərq qapısı” qəzetinin kollektivinə təşəkkürünü bildirib, Vətən müharibəsi şəhidi İbrahim Vəlizadənin anası Xurşud Vəliyevaya “100 ilin qəhrəmanları” kitabını təqdim edib.




“Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin sədri, şəhid Amin Gülməmmədovun atası Mais Gülməmmədov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, şəhid leytenant Emin Sadiqovun anası Gülşad Rüstəmova, şəhid İbrahim Vəlizadənin anası Xurşud Vəliyeva çıxış edərək şəhid ailələrinə göstərilən dövlət qayğısına görə ölkə başçısı cənab İlham Əliyevə minnətdarlıq ediblər.



“Şərq qapısı” qəzetinin baş redaktoru, “100 ilin qəhrəmanları” layihəsinin rəhbəri Sara Əzimova, Naxçıvan Dövlət Universitetinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru, layihənin icraçısı Turan Məmmədlinin çıxışları dinlənilib.

Qeyd olunub ki, “Şərq qapısı” qəzetinin “100 ilin qəhrəmanları” layihəsi çərçivəsində ərsəyə gələn kitabda şanlı Vətən savaşında və sonrakı hərbi əməliyyatlarda canından keçib şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın valideynlərinin (Naxçıvan Muxtar Respublikasında yaşayan) övladları haqqında xatirələri yer alıb. 44 cümləyə sığışdırılan hər bir xatirə şəhidlərimizə böyük sevgi və ehtiramın ifadəsidir.

Mərasimdə Naxçıvan Televiziyası və “Şərq qapısı” qəzetinin birgə hazırladığı “100 ilin qəhrəmanları” adlı videoçarxa baxış olub.

Sonda Naxçıvan Dövlət Milli Dram Teatrının direktor əvəzi Mirqabil Əkbərov vətənpərvərlik ruhunda şeir səsləndirib, Naxçıvan Dövlət Filarmoniyasının solisti, Prezident mükafatçısı İlkin Abdullayev “Qələbəyə gedən yollar” mahnısını ifa edib.

## Ali Məclisin İqtisadi siyasət komitəsinin iclası keçirilib



Dekabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclası keçirilib.

Komitənin sədri Emin Şıxəliyev iclasın gündəliyinə “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun (ikinci oxunuş) müzakirəsinin daxil edildiyini bildirib.

Emin Şıxəliyev qeyd edib ki, “Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 noyabr tarixli Fərmanına uyğun olaraq Naxçıvan Muxtar Respublikası ərazisində fəaliyyət göstərən Dövlət Energetika Xidmətinin və Su Ehtiyatları Agentliyinin səlahiyyətlərinin müvafiq olaraq “Azərenerji”, “Azərişıq” Açıq Səhmdar cəmiyyətlərinə və Azərbaycan Respublikası Dövlət Su Ehtiyatları Agentliyinə ötürülməsi nəticəsində Azərbaycan Respublikasının 2025-ci il üzrə dövlət büdcəsində Naxçıvan Muxtar Respublikasına ayrılmış dotasiyanın məbləğində dürüstləşmə aparılaraq 34 milyon 816 min manat azalma olub. Dəyişikliyə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin gəlirlərinin 493 milyon 143 min manat, xərclərinin 505 milyon 184 min manat məbləğində təsdiq edilməsi nəzərdə tutulub. Buna müvafiq olaraq “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi yenidən işlənib.

Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov qanun layihəsi barədə məlumat verib və gündəlikdə duran məsələ ətrafında müzakirələr aparılıb.

Sonda müzakirə olunan məsələ ilə əlaqədar İqtisadi siyasət komitəsinin rəyi oxunub, yenidən hazırlanmış qanun layihəsi yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclasının (ikinci oxunuş) müzakirəsinə tövsiyə olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanın media nümayəndələri Bakı şəhərində “Media savadlılığı” mövzusunda keçirilən konfransda iştirak edib




Bakı şəhərində Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə media sahəsində məlumatlılığın artırılmasına dair “Media savadlılığı” mövzusunda konfrans keçirilib.

“Şərq qapısı” xəbər verir ki, keçirilən tədbirə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən media qurumlarının rəhbərləri də qatılıb.

Konfransda “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri Sahil Tahirli, Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin Naxçıvan Regional İdarəsinin rəhbəri Vəfa İsgəndərova, Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, dosent Şəhla Şirəliyeva və “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova iştirak ediblər.

## “Sevdası Vətən olanlar” kitabının təqdimatı olub



Sədərək Rayon Mədəniyyət Sarayında rayon İcra Hakimiyyətinin dəstəyi, “Naxçıvan Qaziləri” İctimai Birliyinin təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin orqanı “Şərq qapısı” qəzetinin dəstəyi ilə nəşr edilən “Sevdası Vətən olanlar” kitabının təqdimatı keçirilib.

Öncə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçən igid oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni səsləndirilib.

“Naxçıvan Qaziləri” İctimai Birliyinin sədr müavini Əli Əlisoy tədbiri açaraq bildirib ki, qədim Naxçıvanın onlarla igid oğlu Vətən müharibəsində və ondan sonrakı hərbi əməliyyatlarda canından keçib. Onların əziz xatirəsi daim yaşadılır. Hər bir şəhidin həyatı bir əfsanə, dastandır. Onlar öz igidlikləri ilə tarix yazıb tarixin özünə çevrildilər. Şəhidlərin qəhrəmanlıq hekayələrinin qələmə alınması vacib amildir. Yaxın günlərdə “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəşr edilən “Sevdası Vətən olanlar” adlı kitabda igid oğullarımızın həyat hekayələri öz əksini tapıb. “Şərq qapısı” qəzetinin əməkdaşı Ramiyə Əkbərovanın qələmə aldığı yeni nəşrdə Şərur və Sədərək rayonlarından olan, Qarabağın azadlıq mübarizəsində qəhrəmanlıq göstərən şəhidlər haqqında məqalələr və ailə üzvlərinin fotoları yer alıb. Kitabda 43 şəhidin həyat hekayəsi və döyüş yolu oxuculara təqdim olunub.

Tədbirdə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Naim Cahidzadə çıxış edərək diqqətə çatdırıb ki, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Ulu Öndərin layiqli davamçısı Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşən xalq tarix yazdı. Bu qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Vətən müharibəsi başlayan kimi Naxçıvanın qəhrəman övladları da torpaqlarımızın işğaldan azad olunması üçün müqəddəs savaşa atıldılar. Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları zəfər yolunu Şuşada tamamlayaraq “dəmir yumruğ”un parlaq qələbəsinin təmin edilməsində müstəsna qəhrəmanlıq göstərdilər. Onlar 1990-cı illərdə Sədərəkdə soyuq səngərlərdə günlərlə ac-susuz qalsalar da, torpağın bir qarışını belə düşmənə verməyən naxçıvanlı oğulların davamçıları olan igidlər idilər. İcra başçısı kitabın nəşrində göstərilən dəstəyə görə təşəkkür edib, müəllifə uğurlar arzulayıb.

Şərur Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Səfər Hüseynov çıxışında qeyd edib ki, Sədərək Azərbaycanın qala qapısı, Ulu Öndərin “Qeyrət qalası” adlandırdığı müqəddəs Vətən torpağıdır. Vaxtilə burada Vətənə sinəsini sipər edən oğulların davamçıları Vətən savaşında tarix yazdılar.



Şəhid atası Rəhim Mədətov çıxış edərək bildirib ki, dövlətimiz hər bir şəhid ailəsini qayğı ilə əhatə edib. Onların xatirəsi hər zaman anılır, yaşadılır. İgid oğulların qısa olsa da, şərəfli həyatı şeirlərdə, məqalələrdə gələcək nəsillərə çatdırılır. Şəhid atası kitabın ərsəyə gəlməsinə maddi və mənəvi dəstək verən “Şərq qapısı” qəzetinin kollektivinə minnətdarlığını bildirib, müəllifə uğurlar arzulayıb.

Şəhid anası İradə Quliyeva tədbirdə çıxış edərək vurğulayıb ki, igid, ürəyi Vətən eşqi ilə dolu olan oğulları dünyaya gətirən analar varsa, bu Vətən də var olacaq.

“Naxçıvan Qaziləri” İctimai Birliyinin sədri Cehun Bayramov çıxışında diqqətə çatdırıb ki, Azərbaycan Ordusu 44 günlük savaşda və sonrakı əməliyyatlarda torpaqlarımızı azad edib, ölkəmizi suverenliyinə qovuşdurdu.

“Şərq qapısı” qəzetinin baş redaktor müavini Məmməd Babayev bildirib ki, 44 günlük Vətən müharibəsi təkcə azərbaycanlıların deyil, Cənubi Qafqazın tarixini dəyişdi. Sonrakı əməliyyatlarda isə ərazimizdə ikinci bir erməni dövlətinin yaranmasına əsla imkan verməyəcəyimizi sübuta yetirdik. Müəllifin kitabda qeyd etdiyi kimi Azərbaycan xalqı bu qələbəni sevdası Vətən olan oğullarının sayəsində qazandı. Güclü dövlətin, damarlarında Vətən eşqi axan gənclərinin sayəsində biz qalib olduq. Onlar haqqında yazılan hər cümlə gələcəyə bir hədiyyədir. “Şərq qapısı” qəzetində çalışan hər bir qələm sahibi şəhidlərimizin qəhrəmanlıqla dolu olan həyatını qələmə alıb yaddaşa köçürməyi özünə borc bilir.

Sonda “Şərq qapısı” qəzetinin baş redaktor müavini Məmməd Babayev və müəllif “Sevdası Vətən olanlar” kitabını şəhid valideynlərinə təqdim ediblər.




*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şərur rayonunun Ələkli kəndindən olan şəhidimiz İlkin Rzayevin anası Balaxanım Rzayevanın, Naxçıvan şəhərindən olan şəhidimiz Şahmar Quliyevin atası Kəmaləddin Quliyevin və Naxçıvan şəhərindən olan şəhidimiz İsmayıl Vəliyevin nənəsi Güldanə Rəhimovanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## İlkin Cəfər oğlu Rzayev

(28.07.1984-02.10.2020)

### Biz balalarımızı Vətən yolunda itirdik





İlkin haqqında günlərlə danışmaq olar. 2006-cı ildən hərbi xidmətə başlamışdı. Hərbi təhsil aldığı və xidmət etdiyi dövrlərdə çoxlu fəxri fərmanlara və mükafatlara layiq görülmüşdü.

Oğlumun 19 illik xidmətinin 16 ili ön cəbhədə keçib... İlkinə Vətən sevgisi atasından, əmisindən qalıb. Uşaqlıqdan övladımın qəlbi qisas hissi ilə döyünürdü. Düşmən vəhşilikləri onun ürəyində qisas hissini daha da gücləndirirdi.

Son xidmətini Murovdağda Kəlbəcər istiqamətində keçirib. Oktyabrın 2-də öz postundan olan döyüş yoldaşlarını mühasirədən azad edib. 40-a yaxın şəxsi heyətin oradan çıxmasında böyük rolu olub. Özü postda təkbaşına döyüşüb. Qəhrəmancasına şəhid olub.

Oğlumun etdiyi qəhrəmanlıqlarla hər zaman qürur duymuşam. Hər zaman "Vətən sağ olsun!" – demişəm. Çünki Vətən bizə ata-baba əmanətidir.

İlkin ailəcanlı idi. Uşaqlarını çox sevirdi. Amma oğlum Vətənini, bayrağını onlardan üstün tutdu. "Vətən", – dedi. Ailəsinə bağlı olması onun içindəki qisas hissini itirə bilmədi. Qisas hissi ilə alışıb-yanan qəlbi ilə şəhid oldu.



İlkin çox həssas idi. Hər kiçik hadisə onun qəlbində böyük bir iz buraxırdı.

Bir onda təskinlik tapıram ki, bayrağımız ölkəmizin bütün ərazisində dalğalandıqca şəhidlərimizin də ruhu şad olacaqdır.

İlkinin iki gül balası yadigar qalıb. Allahıma dua edirəm ki, yaxşı ki, onlar var. İlkinin qoxusunu onlardan alıram. Çox ağıllı balalardır. Elə atanın belə də övladları olmalıdır.

Biz balalarımızı Vətən yolunda itirdik. Qələbə qazandıq. Elə Qələbə ki Azərbaycan tarixində ilkdir. Bu Qələbə bizə namusumuzu, qeyrətimizi qaytardı. Bu Qələbə xalqın öz Ali Baş Komandanı ilə birliyini bütün dünyaya göstərdi. Dövlət-xalq birliyinin nümayişinə çevrildi. İndi bütün dünya Azərbaycandan danışır. Şəhidlərimiz, qazilərimiz, bütün müharibə iştirakçıları 44 gün, 23 saat 43 dəqiqədə necə qələbə qazandıqlarını dünyaya göstərdilər.

Biz – bütün şəhid valideynləri övladlarımızla qürur duyuruq. Fəxrlə danışırıq. Onların qəhrəmanlıqlarından təsəlli tapırıq.

Vətən sağ olsun! Azərbaycan Bayrağı bu gün bütün ölkəmizdə dalğalanır. Bu bayraq bizim qürur yerimizdir. Allah bütün şəhidlərimizin məkanını cənnət etsin, onların ruhları şad olsun!

## Şahmar Kəmaləddin oğlu Quliyev

(07.11.1991-28.09.2020)

### Düşmən onu yalnız snayperlə vura bilərdi





Çox fəal uşaq idi Şahmar. Təhsilinə, tərbiyəsinə söz ola bilməzdi. Müəllimləri həmişə razılıq edirdilər. Bu sənəti özü seçdi. IX sinifdə oxuyanda bildirdi ki, hərbçi olmaq istəyir. Razılıq verdik. Həmin il hərbi liseyə daxil oldu. Hərbi liseyi də, akademiyanı da əla qiymətlərlə bitirdi. Təyinatını birbaşa döyüş bölgəsinə aldı. Ağcabədi, Ağdam onun ilk təyinat yerləri olub.

Mingəçevirdə bölük komandiri idi. 2020-ci ilin yay tətilində təlimdə iştirak etmişdi. Həmin təlimdə fəxri fərmanla təltif olunmuşdu. Digər mükafatlara da layiq görülmüşdü.

Tez-tez yanına gedirdik. Həmişə razılıqla danışardı. Bir gün zəng vurdu ki, mən ikinci təhsili almaq üçün xaricdə oxumaq istəyirəm. Ailəmi də aparacağam. Mən icazə vermədim.



Sentyabrın 27-də müharibə başlayan gün Mingəçevirdə idi. Ailəsi mənim yanımdaydı. 26-sı gecə zəngləşdik. Daha doğrusu, Şahmar zəng vurmuşdu. Dedi ki, ata, çox yaxşıyam. Anasını məndən soruşdu. 27 sentyabrda Suqovuşan istiqamətində döyüşdə qəhrəmanlıq göstərib. Minalı əraziləri keçiblər. Postları təmizləyiblər. Yoldaşlarının dediyinə görə, əməliyyata 26-dan 27-nə keçən gecə başlayıblar. Postları təmizlədikdən sonra kömək istəyiblər. Həmin vaxt düşmən tərəfindən güclü atəşə tutulublar. Xəbər verilib ki, snayper var. İrəli getməyə mane olur. Snayperi tapmaq üçün özü gedir. Snayperi tapır. Məhv edir. Lakin həmin yerdə ikinci snayper də var imiş. Şahmarı snayperlə vurublar.

28 sentyabrda günortadan sonra zəng vurdular. Bildirdilər ki, Şahmar şəhid olub. Eşitdiyimə inanmaq istəmədim. Çünki Şahmar o qədər qoçaq, igid, yenilməz idi ki. Oğlum şəhidliyə ucaldı. Allah şəhidlərimizə rəhmət etsin.

Vətən sağ olsun!

## İsmayıl Mehman oğlu Vəliyev

(24.03.1996-08.11.2020)

### Döyüş yoldaşları İsmayıl haqqında qürurla danışırlar





İsmayılın anası rəhmətə gedib. Həmin vaxt İsmayıl IV sinifdə oxuyurdu. Müəllimləri razılıq edirdilər. Lap balaca vaxtından mənə "ana" deyərdi. Anası sanki öləcəyini hiss etmişdi. Uşaqlara mənə "nənə" yox, "ana" demələrini öyrədirdi... İsmayılın özündən balaca bir qardaşı da vardır.

Anası rəhmətə getdikdən sonra mənə daha çox bağlandı.

Dərsdən gələn kimi ilk olaraq məni axtarırdı. Tez nə bişirdiyimi soruşurdu. Deyirdim ki, ana qurban, əynini dəyiş. Sonra yemək axtararsan. Deyirdi ki, ana, bərk acmışam.

İsmayıl həm mehriban, həm də ağıllı uşaq idi. Anasının ölümü İsmayılı daha tez böyütmüşdü.

Hərbçi olmaq ən böyük arzusu idi. Bu arzu onu hərbi liseyə apardı. Həm Naxçıvanda, həm də Bakıda təhsil aldı.

Balaca vaxtından bir videoyazısı da var. Bir nəfərə deyir ki, mən böyüyüb erməniləri qovacağam. Həqiqətən də, dediyini etdi... Döyüş yoldaşları tez-tez ziyarətimizə gəlirlər. İsmayıl haqqında qürurla danışırlar. Onun şir kimi döyüşdüyünü deyirlər.

İsmayıl Aprel döyüşlərində də iştirak edib. Amma bu haqda bizə heç nə deməyib. Sonra xəbər tutduq. Yoldaşları dedilər. Hətta həmin döyüşlərdə yaralanıb da. Aprel döyüşlərindən sonra baş leytenant hərbi rütbəsi vermişdilər. Bir gün şəkil paylaşmışdı. Paqonlarını gördüm. Dedim, bu nədir? Dedi ki, ana, yenicə rütbəmi artırıblar.



Sonuncu dəfə danışanda da çox təmkinli idi. Deyirdi ki, ermənilərin yaşadıqları yerlərə giriblər. Deyibgülürdü. Oktyabrın 3-də danışdıq. Kimsə arxadan ona: "Sən gedə bilməzsən", – deyirdi. Soruşdum ki, İsmayıl, nə deyirlər? Dedi ki, ana, başımda bir az yara var. Deyirlər ki, sən döyüşə gedə bilməzsən. Amma mən getməliyəm. Getdi və şəhid oldu.

# Naxçıvanın “qapısı olmayan kəndi”



Ceyhun MƏMMƏDOV

***... Kəndin mərkəzində başı buludlara söykənən, əynindəki payızın rəngləri təbiətin təmiz, saf havası ilə harmonik bir ritm yaradan, yeridikcə xəzəlin səsindən notların pıçıltısını həzin musiqiyə çevirən, yaşı 500-ü haqlayan qocaman çinar qarşılayır bizi. Çinarın həndəvərində, daha dəqiq desək, onunla üz-üzə dayanan yarıtikili vəziyyətdə olan ev isə sanki kəndin salnaməsini özündə əks etdirir. Ordubada xas olan əlamətlərdən biri ilə yenidən üzləşirik: çinar və yanında məscid.***

Qızarmış yarpaqların budaqlardan “küsmüş” kimi həzin-həzin yerə düşməsi çinar altında əyləşən kənd ağsaqqallarının üzündə sanki bir qədər nigaranlıq yaradırdı. Payızın son akkordlarında yaşı tarixə “divan” tutan bu çinarın qocalığı onları narahat etməyə bilməzdi: İlahi qüvvə onlara ulu babalarının əkdiyi çinarı görməyi nəsib edib. Qocaman çinar altında Zəngəzur silsiləsinin ətəyindən əsən sərt meh səhərin şehini otların, yarpaqların üzərindən alaraq onların üzünə vururdu. Tanrı sanki payız tablosunu ərsəyə gətirmək üçün sarı, qırmızı rəngli fırçası ilə sığal çəkib bu kəndin üzərinə...

Digər fəsillərdən fərqli olaraq indi kənddə bir qədər sakitlik hökm sürür. Kəndin yaşı əsrləri ötmüş, sakit küçələrini gəzdikcə adama rahatlıq gəlirdi. Ordubadın ucqar kəndlərindən olan Dırnıs sanki tarixin izlərini öz möhrə divarlarında, daşlarında gizlədib. Deyilənə görə, kənd əvvəllər 2 məhəllədən ibarət olub: yuxarı və aşağı məhəllə. Yuxarı məhəllənin sakinləri deyir ki, bura daha qədimdir. Elə evlərin tikilişinə baxaraq bunu görmək mümkündür. Sel sularından uzaq olmaq üçün yuxarı məhəllədə evlərin əksəriyyəti dağ döşündə tikilib. Yuxarı məhəllədə memarlıq-konstruktiv quruluşuna görə XVII əsrə aid edilən Dırnıs məscidi isə kəndin qədimliyindən xəbər verir. Burada məscidin minarəsinə çıxmaqla bütün kəndi ovuc içində görmək mümkündür. Hara boylansan, eyni mənzərə: evlər arasında yarpaqlarını tökməkdə olan ağaclar, ağaclar arasında məftillə çəkilmiş hasarlar, hasarları aşmayan toyuq-cücə, qoyun-quzu...

Kəndin özü kimi sakinləri də bir qədər fərqlidir: burada istənilən qapını döyüb həmin evin qonağı ola bilərsən. Elə qarşılaşdığımız kənd ağsaqqalı Adil Möhsümov kimi. Ömrünün bütün payızlarını bu kənddə qarşılayan Adil müəllim deyir: “Yaşı min ildən artıq olan bu kənddə türkdilli alban tayfaları yaşayıb. Yerləşdiyi coğrafi mövqeyə görə yerli sakinlərin Cənubi Azərbaycanla əlaqələri güclü olub. İstər XVII əsrdə Arazın o tayından köçürmələr, istərsə də yerli adamların Arazı keçərək ən yaxın ticarət yeri kimi Cənubi Azərbaycan şəhərlərini seçməsi burada əlaqələrin formalaşmasına səbəb olmuşdur. Dırnıs sözünün etimoloji mənası “qapısı yox” mənasını verir ki, kəndin coğrafi mövqeyi də bunu təsdiq edir. Bu kəndin qapısı olmayıb”.

Adil kişi deyir ki, bu sözün digər bir mənası kənd camaatının qonaqpərvərliyi ilə də izah edilə bilər. Çünki kənddə sakinlər qapılarını bağlamır və hər bir evin qapısı bura gələn qonaqların üzünə açıqdır.

Rəhman Möhsümovdan kəndin adı barədə soruşanda isə o da bildirdi ki, qədimdən yuxarı, dağ, təpə mənalarında işlənilən Dırnıs sözü “Dərqapı”, “Nist-yox” sözlərindən alınıb. Yəni Dərnist “qapısı yox” mənasını verir.



Doğrudan da, maraqlıdır, qapısız kəndin olması. Əslində, kəndin coğrafi mövqeyinə baxdıqda bunu sezmək, görmək mümkündür. Kənd giriş-li-çıxışlı yolun üzərində yerləşir. Bir qol səni Naxçıvanın ən böyük şəlaləsi Pəzməriyə aparırsa, digər yolun uzandığı yer muxtar respublikanın mərkəzinədir. Sanki bir küçə üzərində qurulan bu kənddə daha çox diqqəti cəlb edən məqam evlərin quruluşu və bu evlərin hər birinin çıxışının mərkəzə olmasıdır. Kənddəki dar küçələrdə tarixin iyini üzərinə hopduran divarlar dil açıb Ordubadın qədimliyindən danışmaq istəyir.

Dırnısda həyatın ən qaynar çağı yaz aylarında olur. Yerli əhalinin dolanışığı, əsasən, torpaqdandır. Burada heyvandarlıq, bağçılıq, bostançılıq sakinlərin əsas məşğuliyyətidir. Rəhman kişi deyir ki, Dırnıs cəvizi adı ilə məşhurdur. Bununla yanaşı, kəndin adət-ənənəsi hələ də qorunub saxlanılır. Bayram günlərində kənddə ab-hava tam fərqli olur. Xüsusilə son çərşənbədə hər evdə “yeddi ləvin” hazırlanır, kəndin bütün qapıları açıq olur. Məhz bu adətin uzun illərdir, davam etməsinin nəticəsidir ki, kənd əhalisi öz qonaqpərvərliyi ilə seçilir.

...Tanrının sehrli çubuğu payızda buranı başqa rəngə boyayır. Yayda yarpaqların arasından zorla görünən qədim evlər, indi həzin notlarla mahnı bəstələyən və küləkli havadan “küsüb” budaqdan düşən yarpaqlardan çılpaqlaşmış ağacların arasından tam aydın görünür. Xəzəl içində kəndi gəzdikcə kiçik dünyanın yüzilliklərini arşınlayıb gələn evlərin həyatında olan təndirlərin bacasından çıxan tüstü Dırnısın kimliyindən, tarixindən xəbər verir. Bu həzin tarixin içindən keçib yenidən səsli-küylü Naxçıvana qayıdırıq. Payız küləyinin pıçıltısı ilə sakitliyi sanki içinə çəkən, təndirdə yandırılan odunların istisində bişirilən yeməklərin, çörəyin bihuşedici qoxusu və bir də uzaqdan bizə baxan, vidalaşa bilmədiyimiz həmin çinar yola salır bizi.



# Günümüzün tələbi – media savadlılığı...

*“Media” elə bir anlayışdır ki, oturduğumuz yerdən məlumatları baş verdiyi andaca qəbul edib onu ötürməyimizə, yeni simalar və dostlar tanımağımıza imkan yaradır. Lakin media savadlılığı sahəsindəki məlumatlılığımızın məhdud olması bəzən bizlər üçün şəxsi məlumatlarımız ilə şantaj olunmağımıza, bəzən isə yanlış bir məlumat burulğanına qapılaraq sürüklənməyimizə səbəb olur. Sosial media platformalarının və internet şəbəkələrinin hər keçən gün daha da inkişaf etməsi ilə media savadlılığı artıq günümüzün tələbinə çevrilib. Valideyn nəzarətində media savadlılığının öyrədilməsi, media savadlılığının cəmiyyətdə baş verən saxta məlumat axınının qarşısını alması kimi mövzular haqqında ətraflı məlumat öyrənmək üçün Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şirəliyeva ilə həmsöhbət olduq:*



*– Şəhla xanım, öncəliklə istəyirəm, media savadlılığı haqqında qısa məlumat verəsiniz. Media savadlılığı deyilərkən nə başa düşülməlidir?*

– Hazırda günümüzün ən güclü silahı mediadır, çünki informasiya texnologiyalarının sürətli inkişafı və internetin yayılması ilə media həyatımıza hərtərəfli nüfuz edib. Media genişmiqyaslı kommunikasiyalara aiddir. Media dedikdə biz, sadəcə, ənənəvi kütləvi informasiya vasitələrini – qəzet, jurnal, televiziya və radionu deyil, eyni zamanda veb-saytlar, sosial şəbəkələr (“Facebook”, “TikTok”, Teleqram”, “Instagram”, “YouTube” və digər) kimi platformalar vasitəsilə alınan və paylaşılan məlumatları da nəzərdə tuturuq.

Müasir informasiya cəmiyyətində media savadlılığı hər zamankından daha vacib hala gəlib. Savadlılıq ötürülən informasiyanı təhlil etmək, ondan müəyyən nəticə çıxartmaq qabiliyyətidir. Media savadlılığı insanlara media məzmununu anlamağa və qiymətləndirməyə imkan verən bir anlayışdır.

Media savadlılığı fərdlərə və cəmiyyətə vizual və qeyri-vizual informasiyaların məqsədini təhlil etmək, onların düzgünlüyünü araşdırmaq və tənqidi düşüncə strukturunu inkişaf etdirmək məqsədi daşıyır. Media savadlılığı insanın müxtəlif media mənbələrini anlamaq, qiymətləndirmək və düzgün istifadə etmək bacarığıdır.

*– Bəs media savadlılığı haqqında məlumatlı olmaq cəmiyyət üçün niyə önəmlidir?*

– Media ictimai rəyin formalaşmasında mühüm rol oynayır. Televiziya, radio, qəzet və internet vasitəsilə yayılmış məlumatlar insanların fikirlərinə və qərarlarına təsir edə bilir. Media savadlılığı cəmiyyətin sağlam düşüncə və qərar qəbul etmə prosesini dəstəkləyir. Media savadlılığı vətəndaşa cəmiyyətin iqtisadi, sosial və mədəni aspektlərində iştirak etmək, həmçinin demokratik prosesdə fəal rol oynamaq imkanı verir. Cəmiyyət üzvləri, media mənbələrini doğru qiymətləndirə və düzgün məlumat əldə edə bildikdə manipulyasiyalara qarşı müqavimət göstərə bilərlər. Media savadlılığı insanların kütləvi informasiya vasitələrindən düzgün istifadə etmələrini təmin edir və beləliklə, səhv məlumatların yayılmasının qarşısını alır. Qısacası, bu dezinformasiyalara aldanmamaq deməkdir.

*– Yayılan hər informasiyaya inanmaq düzgündürmü? İnformasiyanın doğruluğunu necə yoxlamaq olar?*

– Yayılan hər informasiyaya inanmaq olmaz. Məlumatın doğruluğunu yoxlamaq üçün bir neçə üsul var. Buraya məlumatın mənbəyini araşdırmaq, etibarlı və tanınmış qaynaqlardan gələn məlumatlara üstünlük vermək, məlumatı digər etibarlı mənbələrlə müqayisə etmək, informasiya mənbələrinin peşəkarlığını yoxlamaq (jurnalistlər, akademiklər, mütəxəssislər və sair), fərqli perspektivlərdən baxaraq xəbərin obyektivliyini qiymətləndirmək, hətta saxta məlumatların qarşısını almaq üçün faktları təsdiq edən müstəqil təşkilatların məlumatlarından istifadə etmək daxildir.

Ümumiyyətlə, səhvlərə yol verməmək, yalan məlumatların qarşısını almaq üçün yenə də jurnalistlərə illərdən bəri dəyişməyən peşə etikası yardımçı ola bilər, yəni dəqiqlik, faktlılıq, yoxlama və obyektivlik.

*– Media savadlılığını artırmaq üçün məktəblərdə də bu fənn tədris olunmalıdırmı? Olunmalıdırsa, bu tədris kimlər tərəfindən və necə yerinə yetirilməlidir?*

– Medianın uşaqların fiziki, koqnitiv və sosial inkişafına müsbət və mənfi təsirləri olduğu iddia edilir. Araşdırmalar göstərir ki, medianın, xüsusən də uşaqların həyatında yeri zaman və məkan baxımından artır. Ona görə də bu vəziyyət uşaqların media təhsili almasının vacibliyini və verilən təhsilin daim yenilənməsi zərurətini ortaya qoyur. Hər gün media ilə təmasda olsalar da, uşaqlarımız bu mediadan nə dərəcədə və necə təsirləndiklərinin fərqində deyillər. Buna görə də media təhsili son dərəcə vacibdir.

Bəli, məktəblərdə media savadlılığı fənni tədris olunmalıdır. Bu, şagirdlərə informasiya mənbələrinin etibarlılığını və doğru istifadə qaydalarını öyrətmək üçün vacibdir. Sinifdə media savadlılığının tədrisə inteqrasiyası şagirdləri gələcəyə hazırlamaqda mühüm addımdır. Media savadlılığını tədrisə daxil etməklə müəllimlər şagirdlərə şəxsi və akademik həyatlarında uğur qazanmaq üçün lazım olan bacarıqları inkişaf etdirməyə kömək edə bilərlər. Bura faktların yoxlanılması, qərəzli məlumatların təhlili kimi media savadlılığının öyrədilməsi aid ola bilər. Beləliklə, biz daha məlumatlı, fəal və məsuliyyətli cəmiyyət yarada bilərik. Bu fənn yalnız jurnalistlər deyil, eyni zamanda pedaqoqlar, media mütəxəssisləri və informasiya texnologiyaları üzrə təhsil almış müəllimlər tərəfindən də tədris edilə bilər. Tədris proqramı interaktiv olmalı, real həyat nümunələri və tətbiqi layihələrdən istifadə edilməlidir. Şagirdlərə müxtəlif media mənbələrini analiz etməyi, dəyərləndirməyi və düzgün informasiya ilə yanlış informasiyanı ayırmağı öyrətmək lazımdır. Bu cəhətdən cəmiyyətin hər bir üzvü ilə yanaşı, valideynlərin, müəllimlərin və məktəb rəhbərliyinin üzərinə böyük məsuliyyət düşür. “Media savadlılığı” anlayışının daha geniş yayılması və ictimai şüur səviyyəsinə qalxması üçün orta məktəb proqramlarına bu fənnin daxil edilməsi çox əhəmiyyətlidir.

Qəzetlər, jurnallar, televiziya proqramları, rəqəmsal media və sosial media kimi müxtəlif mənbələrdən istifadə edərək şagirdlər medianın müxtəlifliyini anlamalı və onu tənqidi təhlil etməyi öyrənməlidirlər. Şagirdlərin xəbərləri anlamaq, tənqidi düşünmək və media məzmununu sorğulamaq bacarıqları təkmilləşdirilməli, xəbərlərin düzgünlüyünün yoxlanılması kimi bacarıqlar üzərində işlənməlidir.

Həmçinin vurğulamaq istərdim ki, media savadlılığı təhsili sürətlə dəyişən media mühitinə uyğun olmalıdır. Yəni şagirdlər yeni texnologiyalar və media platformaları haqqında məlumatlandırılmalı, təhsil proqramları mütəmadi olaraq yenilənməlidir.

Beynəlxalq təcrübə də onu göstərir ki, media savadlılığı orta məktəblərdən başlayır. Türkiyədə də 2007-2008-ci illərdən etibarən orta məktəblərdə media savadlılığı fənni tədris edilir.

Azərbaycan təhsil sistemində də media savadlılığı ilə bağlı həm orta məktəb, həm də universitetlərdə tədrisə ehtiyac var. Düzdür, Medianın İnkişafı Agentliyi tərəfindən ali məktəblərdə media savadlılığı çərçivəsində silsilə təlim və seminarlar təşkil olunur. Amma düşünürəm ki, media savadlılığının tədris proqramına salınması və bütün ixtisaslarda tədris olunması zəruridir.

*– Media savadlılığını artırmaq üçün hansı proqramlar və layihələr icra oluna bilər?*

– Media savadlılığını artırmaq üçün təhsil müəssisələrində media savadlılığına dair xüsusi dərslər və seminarlar təşkil etmək, cəmiyyətin müxtəlif təbəqələrinə yönəlmiş maarifləndirmə kampaniyaları keçirmək əhəmiyyətli olar. Bundan başqa, onlayn kurslar və resurslar hazırlamaq lazımdır ki, hər kəs asanlıqla informasiya doğrulama metodlarını öyrənsin. Sosial şəbəkələrdə saxta məlumatları tənqid edən və doğrulama üsullarını göstərən layihələr həyata keçirməklə də media savadlılığının artırılmasına dəstək vermək olar.

Peşəkar jurnalistlər və media ekspertləri ilə seminarlar təşkil edərək bu sahədəki bilikləri artırmaq da əhəmiyyətlidir.

Məlumdur ki, 8 fevral 2022-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Media haqqında” Qanunu təsdiqləmişdir. Ölkəmizin informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, yerli medianın inkişafına təkan verilməsi, informasiya mühitinin sağlamlaşdırılması və rəqabətqabiliyyətinin artırılması baxımından əhəmiyyətli olan bu qanunda media savadlılığı məsələsi də ilk dəfə olaraq öz əksini tapmışdır. Zənnimcə, mütəmadi olaraq televiziya kanallarında media maarifləndirməsi ilə bağlı “Media haqqında” Qanunun müxtəlif maddələrini izah edən videoçarxların nümayiş etdirilməsi də cəmiyyətdə media savadlılığına töhfə verə bilər.

*– Media savadlılığına bələd olmaq rəqəmsal aləmdə şəxsi məlumatlarımızı qorumağa nə dərəcə kömək edir?*

– Media savadlılığı şəxsi məlumatların qorunmasında çox mühüm rol oynayır. İnsanlar media mənbələrini daha yaxşı dərk etdikcə şəxsi məlumatlarının necə istifadə edildiyini və hansı təhlükələrə məruz qaldığını daha yaxşı anlayırlar. Bu həmçinin məlumatların təhlükəsizliyinə dair düzgün davranışları mənimsəməyə kömək edir. Rəqəmsal aləmdə şəxsi məlumatların qorunması üçün güclü parolların istifadə edilməsi, iki faktorlu doğrulama sistemlərinin tətbiqi və şübhəli linklərdən çəkinmək kimi məsləhətlər verilə bilər.

*– Xəbərlər cəmiyyəti təsirləndirib idarə edir, yoxsa cəmiyyətin etdiklərinə görə xəbər formalaşır?*

– Bu sual çox mürəkkəbdir və həm cəmiyyətin, həm də medianın qarşılıqlı təsirini nəzərdə tutur. Həm cəmiyyət, həm də media bir-birinə təsir edir. Media xəbərləri yayımlayaraq cəmiyyətin fikirlərinə yön verə bilər, amma, eyni zamanda cəmiyyətin maraqları və tələbləri də xəbərlərin formalaşmasında rol oynayır. Sosial, iqtisadi və siyasi kontekstdə xəbərlər cəmiyyətin mövcud vəziyyətini əks etdirə bilər, eyni zamanda cəmiyyət də mediada yayımlanan xəbərləri öz gündəlik həyatlarına inteqrasiya edir.

*– Valideynlər uşaqlarının media savadlılığını necə artıra bilərlər?*

– Valideynlər media savadlılığını artırmaq üçün uşaqlarına müxtəlif media mənbələrini düzgün seçməyi öyrədərək onlara saxta xəbərlər və manipulyasiyalar haqqında məlumat verməklə dəstək ola bilərlər. Bundan başqa, valideynlər övladlarının onlayn fəaliyyətlərinə nəzarət edərək onların təhlükəsizliyini təmin etməlidirlər. Hər bir valideyn ailədə media istifadəsi ilə bağlı açıq dialoqlar aparmalı və uşaqların fərqli media məzmununu necə başa düşdükləri ilə maraqlanmalıdır. Eyni zamanda uşaqları şəffaf və etibarlı mənbələrdən faydalanmağa təşviq etməlidirlər.

Sosial mediada düzgün və sağlam balansı tapmaqda uşaqlara kömək etmək üçün valideynlərin övladları ilə sosial mediadan ağıllı istifadə üsullarına dair mütəmadi söhbətlər aparması xüsusilə vacibdir. Məncə, sosial medianın üstünlükləri ilə yanaşı, zərərlərini də izah etsək və bunun nəticələrinin onların şəxsi inkişafına mənfi təsir göstərə biləcəyini vurğulasaq, övladlarımız daha şüurlu sosial media istifadəçisi ola bilərlər.

*– Müasir dövrümüzdə, demək olar ki, hər kəsin internetdən istifadə etməsi ilə “filtr balonu” anlayışı da ortaya çıxmağa başladı... Filtr balonu haqqında tam məlumat versək, filtr balonu nədir? Filtr balonunu bizmi yaradırıq, yoxsa yaratmağımızı tələb edərək bizi idarə edir?*

– Filtr balonu və ya ideoloji çərçivə (ingilis dilində “filter bubble”) elmi dildə desək, fərdiləşdirilmiş axtarışlar, tövsiyə sistemləri və alqoritmik kurasiya nəticəsində yarana bilən intellektual təcrid vəziyyətidir.

Klassik mediadan fərqli olaraq, vətəndaşlar sosial media vasitəsilə cəmiyyətin bütün təbəqələrindən fərqli siyasi baxışlara və cari məlumatlara tez bir zamanda daxil ola bilirlər. Amma maraqlısı budur ki, eyni sosial media insanların daha az məlumatlı olmasına, mühüm hadisələri qaçırmasına və sosial qütbləşmənin artmasına da səbəb ola bilər. Bu effekt “filtr balonu” adlanır. Bu nəzəriyyəyə görə, istifadəçilər özlərini informasiya qabarcığında, informasiya filtrində tapırlar və kənar məlumatlara daxil ola bilmirlər. İnsanlar sosial şəbəkələrdə yalnız onlar kimi düşünən insanları izləyir və müxtəlif siyasi baxışlardan olan məlumatları görə bilmirlər. Bundan əlavə, istifadəçilər fərqli baxışları olan insanları izləsələr belə sosial media platformaları həddindən artıq məlumat axınını aradan qaldırmaq üçün bəzi istifadəçilərdən məlumatları gizlədə bilərlər. Məsələn, bir istifadəçinin “Facebook”da paylaşdığı mesajını dost siyahısında olanların yalnız 12 faizi görə bilir. Bu ilkin seçim istifadəçiyə onu maraqlandıracaq və vaxtını daha səmərəli istifadə etməyə kömək edəcək şeyləri göstərmək məqsədi daşıyır, lakin bununla belə bu, plüralizmə və məlumat müxtəlifliyinə xələl gətirə bilər. Sosial media istifadəçiləri yalnız dostlarının “bəyəndiyi” məhdud sayda mənbələrdən məlumat əldə edirlər.

Filtr balonu ilk dəfə 2011-ci ildə Eli Pariser tərəfindən istifadə edilib.

Təsəvvür edin ki, internetdəki bütün platformalar və saytlar bizə yalnız bizi maraqlandıran məzmunu təklif edir. İnternetdə alternativ baxışlardan uzaqlaşdıqca və bəyəndiyimiz şeyləri daha çox gördükcə perspektivimiz daralır və sual vermək qabiliyyətini itirən fanatlara çevrilirik. Ancaq özümüzü aldadan vəziyyətə görə qismən məsuliyyət daşısaq da, bu, tamamilə bizim günahımız deyil. Yəni bizim nəzarətimizdən kənarda olan və tamamilə rəqəmsal olaraq baş verən vəziyyətlər də var. Filtr balonunu həm biz yaradırıq, həm də texnologiya şirkətləri bunu bizə təqdim edirlər.

Mövzunu Bill Qeytsin 2017-ci ildə dediyi fikri ilə yekunlaşdırmaq istərdim: “Sosial media texnologiyası sizə həmfikir insanlarla qarışmağa imkan verir və beləliklə, siz başqa insanlarla qarışmırsınız və başqa perspektivləri başa düşmürsünüz... Bu mənim və bir çox insanın gözlədiyindən daha böyük problemdir”.

Suala cavabımı ümumiləşdirərək demək istəyirəm ki, filtr balonunu müəyyən qədər özümüz yaratsaq da, bizi idarə etməsinə imkan verməməliyik.

*– “Media savadlılığı” mövzusunda suallarımı ətraflı cavablandırdığınız üçün təşəkkür edirəm...*

– Mən də müsahibəyə, maraqlı suallara görə sizə və qəzetinizə təşəkkür edirəm. Ümid edirəm ki, bu cavablar media sahəsindəki problemlərin daha dərindən anlaşılmasına və həm cəmiyyətin, həm də fərdlərin media savadlılığına daha çox diqqət yetirməsinə kömək edəcək.

**Rafiq TƏHMƏZ**



# Qışın müjdəçisi – çillə

Həyatı çətinliyə salan qışın obrazı, heç şübhəsiz ki, ulu babalarımızın təsəvvüründə qara cizgilərlə canlanırdı. Elə buna görə də dilimizdə “Qara qış”, “Böyük çillə”, “Kiçik çillə” kimi adlar təbiətin sərt iqliminin məzmun daşıyıcısı kimi ortaya çıxıb. Amma buna baxmayaraq, qarın insanlar üçün müsbət xüsusiyyətləri “Qar olmasa, bar olmaz”, “Qar ili, var ili” kimi atalar sözlərində də əks olunub.

Qədim türklər arasında keçirilən bayramlar, mərasimlər daha çox qış və yazla bağlı olmuş və ilin müəyyən günlərində qeyd edilirdi. Günümüzə qədər yaşayan bu bayramlar, adətən, payızda işlərin yekunlaşması, qışda isə mal-heyvana qulluqla bağlı olub. Belə bayramlardan biri də çillə mərasimidir. Xalqımız qış fəslini xalq təqviminə uyğun olaraq “Çillə” adı ilə üç yerə bölüb: Böyük çillə, Kiçik çillə, Ala çillə və ya Ala çolpav. Sonuncu çilləyə Boz ay da deyilir, “Çillə bayramı”, “Çillə gecəsi” payız fəslinin sonu, qış girən günü, yəni 20 dekabr gecəsi qeyd edilir. “Çillə gecəsi” ilin 365 gecəsinin ən uzunu və qışın başlanğıc gecəsidir.



Mərhum Zaleh Novruzovun “Etnoqrafik yaddaşımızdan” adlı kitabında qeyd olunur ki, xalq təqviminə uyğun olaraq Böyük çillənin birinci ongünlüyü (dekabr ayı) “Qarı qatıldı küfləyə”, yanvar ayının əvvəli isə “Qarı boğan” adlanır. Bundan əlavə, xalq təqvimində Böyük çillənin sonlarına “Qurdun insana yerikləyən dövrü” də deyilir. Bu da onunla əlaqəlidir ki, ilin bu dövründə qurd (canavar) ac qaldığı üçün insanlara da hücum edir. Qışın bərk şaxtalı günlərinə həm də “Qışın qulun (atın balası) salması” dövrü deyilir.

Ta qədimdən Çillə bayramını xalqımız xüsusi qeyd edər, insanlar bu bayrama hələ bir neçə gün əvvəldən hazırlıq görərdilər. Bəzi bölgələrdə çillə bayramı adı ilə tanınan həmin gün həyətdə tonqallar yandırılır, odun üstündən tullanılır, tonqal ətrafında rəqs edilir, əyləncəli oyunlar, tamaşalar göstərilirdi. Böyük çillənin şərəfinə hər evdə açılmış süfrəyə bədənə istilik gətirən dadlı-ləzzətli yeməklər qoyulurdu. Böyük çillə süfrəsinin ən sayılıb-seçiləni çillə qarpızıdır. Bayram günü, demək olar ki, bütün evlərdə “çillə qarpızı” kəsilərdi. Hər kəs çalışardı ki, həmin gün evində “çillə qarpızı” olsun. Qarpız çillə gecəsinin ən gözəl payı sayılır. Əksər ailələr belə qarpızları əvvəlcədən alıb saxlayardılar. Çillə üçün nəzərdə tutulan qarpızın ən yaxşısı tam yetişməmiş və saplaqlı olanı idi. “Çillə qarpızı” xarab olmasın deyə onu ot və ya samanın içərisində saxlayırdılar. Çillə qarpızını, adətən, evin böyüyü kəsərdi. Onun tumları isə yığılıb saxlanılardı. İnama görə, çillə qarpızının tumlarının atılması günahdır, onda növbəti il bol məhsul olmaz. Qarpız saxlamağa imkanı olmayan ailələr bazardan da olsa, boranı, qarpız alıb bayramı qeyd edirlər. İnama görə, qışda ağ boranı bişirdikdə və ya qarpız kəsdikdə o il qış daha mülayim keçər və ruzili olar.





Çillə gecəsində nişanlı qızlara oğlan evindən hədiyyə göndərilməsi Naxçıvan bölgəsində adətdir. Qız evinə müxtəlif meyvələr, hədiyyə, şirniyyat ilə bərabər çillənin rəmzi hesab olunan qarpız da göndərilir. Çillələik adlanan belə hədiyyələr xüsusi qablara qoyulur, üstü ağ və ya qırmızı şal ilə örtülür. Çillələik hava qaralmadan hazırlanıb göndərilir. Etnoqrafların yazdığına görə, qızın və ya gəlinin ana-atası hədiyyə gətirənləri üzərlik yandıraraq qarşılayır, hədiyyələri gətirənlərə şirinlik verirlər.

Asəf Orucov və Elxan Yurdoğlunun “Naxçıvanda bayram və mərasimlər” kitabında qeyd olunur ki, çillə qarpızı kəsilən vaxt xalq arasında niyyət etmə adəti mövcuddur. Niyyət zamanı qarpızın baş tərəfini kəsib, dörd yerə ayırıb atırlar. Əgər ikisi eyni rəngdə ağ və ya göy olarsa, niyyət qəbul edilmiş olur. Bu da belə bir fikir söyləməyə əsas verir ki, xalqımızın çillə gecəsi qarpızın qabığının bir hissəsini dörd yerə bölüb niyyət tutub atılması ehtimal edilir ki, dörd fəsillə, atılan qarpız qabıqlarının rənglərinə uyğun (ağ və göy) niyyətin qəbul olması isə fəsillərin əlamətləri ilə əlaqədardır. Bundan başqa, qarpız kəsib yeddi evə pay göndərilərdi. Çillədə qarpız yoxdursa, ürəklər sərin olsun deyə qatıq yeyərdilər. Həmin gecə süfrəyə “q” hərfi ilə başlanan nemətlər, məsələn, qarpız, qovun, qatıq, qovurqa, qaysava, qovurma, qovut və sair qoyma adəti də mövcuddur.

Artıq çillə sərt üzünü göstərməyə başlayıb. Soyuğu, çəni, dumanı ilə. Ancaq el arasında deyildiyi kimi, hər qışın bir baharı var. Baharı görmək ümidi ilə...

✍ **Gülcamal TAHİROVA**

## Görkəmli alimlə görüş keçirilib



Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri, Humboldt mükafatını qazanan ilk azərbaycanlı alim Məsud Əfəndiyev şagirdlərlə görüş keçirib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Aidə Cəlilzadə professor Məsud Əfəndiyevi salamlayıb və görüşə qatıldığı üçün ona təşəkkürünü bildirib. Prorektor qeyd edib ki, bu cür görüşlər şagirdlərin beynəlxalq elm və innovasiya sahəsində biliklərini artırmaq, elmi əməkdaşlıqları genişləndirmək və beynəlxalq əlaqələri daha da inkişaf etdirmək baxımından önəmlidir.

Görüş zamanı professor şagirdlərə öz elmi və beynəlxalq təcrübələrindən danışıb. Vurğulayıb ki, hər bir şagirdin böyük potensialı var və bu potensialı üzə çıxartmaq üçün səbirli olmaq və daim çalışmaq lazımdır. Professor Almaniyanın Münhen şəhərində Helmholtz Tədqiqat Mərkəzində apardığı işlərdən və müxtəlif beynəlxalq layihələrdə iştirakından bəhs edib. Bu təcrübələrdən çıxış edərək o, şagirdlərin beynəlxalq platformalarda əməkdaşlıq etmələrinin onların bilik və bacarıqlarını artırmaq üçün böyük imkanlar yaratdığını bildirib.

Sonda professor Məsud Əfəndiyev müəllim və şagirdlərin suallarını cavablandırıb.




## Naxçıvan gimnastı beynəlxalq turnirin mükafatçısı olub



Bakıda bədii gimnastika üzrə “Qış nağılı” beynəlxalq turniri keçirilib. Milli gimnastika arenasında təşkil olunan yarışda 2009-2018-ci il təvəllüdlü gimnastlar ayrı-ayrı alətlərdə qüvvələrini sınayıblar. Turnirdə xarici ölkələrdən bədii gimnastlar da bacarıqlarını nümayiş etdiriblər.

Turnirə məşqçi Humay Qafarovanın rəhbərliyi ilə 6 idmançı qatılıb. Onlardan biri mükafatçılar sırasına düşməyi bacarıb. 2014-cü il təvəllüdlülər arasında yarışan Təranə Əlizadənin lentlə hərəkətləri üçüncü yerlə dəyərləndirilib və təmsilçimiz turnirin bürünc medalına layiq görülüb.

Qeyd edək ki, iki gün davam edən turnir, həmçinin gələn ildən qüvvəyə minəcək yeni yarış qaydalarını mənimsəmək məqsədi daşıyıb.

### Bildiriş

Naxçıvan Dövlət Universiteti 2024-2025-ci tədris ilinin payız imtahan sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır:

1. Universitetin qiyabi şöbəsinin bütün ixtisaslarında (əlavə ali təhsil də daxil olmaqla) payız imtahan sessiyası 6 yanvar 2025-ci il tarixdən başlayır və 15-20 iş günü davam edir.
2. Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.

### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin kollektivi
Naxçıvan Şəhər Maliyyə İdarəsinin rəis müavini
**ELŞƏN ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və
mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

### İtmişdir

Babək rayonu, Cəhri qəsəbə sakini Əliyeva Təranə Arif qızına məxsus JN-114A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Regional Peşə Hazırlığı Mərkəzi publik hüquqi şəxs tərəfindən Ağalarov Sultan Əli oğluna 21.10.2021-ci ildə başladığı qazanxana maşinisti kursunu 24.11.2021-ci ildə bitirməsi haqqında verilmiş AS-019237 nömrəli sertifikat itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Zeyvə kəndində yaşamış Əliyev Baxşəli Fərman oğlunun adına olan JN-1267A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kəndində yaşamış Salayev Nəriman Məhəmməd oğlunun adına olan JN-568 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Bağırov Tofiq Novruz oğlunun adına olan JN-169 nömrəli, 10300058 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Əliyev Səbzalı Əli oğlunun adına olan Azərbaycan Respublikası Vətən Müharibəsi Veteranları Birliyinin 1420 nömrəli vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çomaxtur kənd sakini Hüseynov Rəhim Camal oğlunun adına olan JN-0089 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Həsənov Məhəmməd Həsən oğlunun adına olan JN-630A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Qasımova Zöhrə Cəlil qızının adına verilən Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Pediatriya ixtisası üzrə 2009-2010-cu illərdə internaturanı bitirməsi haqqında sertifikat itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Babək qəsəbə sakini Zamanov Əşrəf İsfəndiyar oğlunun adına olan JN-561A nömrəli, 10301018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Siyaqut kənd sakini Məmmədov Yavər Dilavər oğlunun adına olan JN-383A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Maxta kənd sakini İbrahimov Ələddin İbrahim oğlunun adına olan JN-281A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kültəpə kənd sakini Hüseynov Teymur Əvəz oğlunun adına olan JN-245A nömrəli, 10308028 kodlu və 245B nömrəli 10308028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr” itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441
Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 377
Nömrəyə məsul: Əli Cabbarov, Ramiyə Əkbərova, Türkanə Əsədova
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.